Yeddinci çağırış

# AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİ İCLASLARININ

# PROTOKOLLARI VƏ STENOQRAMLARI

Birinci sessiya
Payız

2-ci cild

30 sentyabr 2024-cü il

Milli Məclisin nəşri
Bakı – 2024

Milli Məclis Aparatının
Redaksiya və nəşr işləri şöbəsində
hazırlanmışdır

# YEDDİNCİ ÇAĞIRIŞ
# AZƏRBAYCAN RESPUBLİKASI
# MİLLİ MƏCLİSİNİN
# I SESSİYASI İCLASININ

# PROTOKOLU № 3

*Milli Məclisin iclas salonu.*
*30 sentyabr 2024-cü il.*

*İclasa Azərbaycan Respublikası Milli Məclisinin sədri* ***Sahibə Qafarova*** *sədrlik etmişdir.*

**İclasda Milli Məclisin 125 deputatı iştirak etmişdir.**

| | |
|---|---|
| **Qeydiyyat** | (saat 12.05 dəq.) |
| İştirak edir | 123 |
| Yetərsay | 83 |

**İclasa dəvət olunmuşlar:**

**Məzahir Pənahov**, Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının sədri.

**Arifə Muxtarova**, Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının katibi.

**Fuad Cavadov**, Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının üzvü.

**Ramiz İbrahimov**, Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının üzvü.

**Validə Kazımova**, Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının üzvü.

**Hüseyn Paşayev**, Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının üzvü.

**İlham Məmmədov**, Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının üzvü.

**Nizami Nadirxanlı**, Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının üzvü.

**Qabil Orucov**, Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının üzvü.

**Şaitdin Əliyev,** Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının üzvü.

**Bəxşeyiş Əsgərov**, Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının üzvü.

**Nailə Əsgərova**, Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının üzvü.

**Tofiq Həsənov**, Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının üzvü.

**Almas Qəhramanlı**, Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının üzvü.

**Etibar Quliyev**, Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının üzvü.

**İlkin Şahbazov**, Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının üzvü.

**İlqar Əlizadə**, Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyası Katibliyinin müdiri.

**Həsən Kazımzadə**, Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyası Katibliyinin rəhbərinin müavini.

**İsmayıl Abbasəliyev**, Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyası Katibliyinin Təşkilat şöbəsinin müdiri.

**Rəşid Yusifbəyli**, Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyası Katibliyinin Beynəlxalq əlaqələr şöbəsinin müdiri.

**Fərid Orucov**, Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyası Katibliyinin İnformasiya Mərkəzinin müdiri.

**Elşən Əsgərov**, Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyası Katibliyinin Ümumi şöbəsinin müdiri.

**Fərid Əbilov**, Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyası Katibliyinin Siyasi partiyalarla iş şöbəsinin müdiri.

**Zirəddin Cəlilov**, Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyası Katibliyinin Redaksiya və nəşr şöbəsinin müdiri.

**Natiq Məmmədov**, Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyası Katibliyinin Maliyyə şöbəsinin müdiri.

**Ramin Nurəliyev**, Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyası Katibliyinin Təsərrüfat şöbəsinin müdiri.

**Əziz Məhərrəmov**, Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyası Katibliyinin Siyasi partiyalarla iş şöbəsinin sektor müdiri.

**İclasın gündəliyinə aşağıdakı məsələlər daxil idi:**

1. Azərbaycan Respublikası Milli Məclisinin Hüquq siyasəti və dövlət quruculuğu komitəsi üzvlərinin seçilməsi haqqında.
2. Azərbaycan Respublikası Milli Məclisinin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsi üzvlərinin seçilməsi haqqında.
3. Azərbaycan Respublikası Milli Məclisinin İnsan hüquqları komitəsi üzvlərinin seçilməsi haqqında.
4. Azərbaycan Respublikası Milli Məclisinin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsi üzvlərinin seçilməsi haqqında.
5. Azərbaycan Respublikası Milli Məclisinin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsi üzvlərinin seçilməsi haqqında.

6. Azərbaycan Respublikası Milli Məclisinin Aqrar siyasət komitəsi üzvlərinin seçilməsi haqqında.

7. Azərbaycan Respublikası Milli Məclisinin Əmək və sosial siyasət komitəsi üzvlərinin seçilməsi haqqında.

8. Azərbaycan Respublikası Milli Məclisinin Səhiyyə komitəsi üzvlərinin seçilməsi haqqında.

9. Azərbaycan Respublikası Milli Məclisinin Ailə, qadın və uşaq məsələləri komitəsi üzvlərinin seçilməsi haqqında.

10. Azərbaycan Respublikası Milli Məclisinin Gənclər və idman komitəsi üzvlərinin seçilməsi haqqında.

11. Azərbaycan Respublikası Milli Məclisinin İctimai birliklər və dini qurumlar komitəsi üzvlərinin seçilməsi haqqında.

12. Azərbaycan Respublikası Milli Məclisinin Regional məsələlər komitəsi üzvlərinin seçilməsi haqqında.

13. Azərbaycan Respublikası Milli Məclisinin Elm və təhsil komitəsi üzvlərinin seçilməsi haqqında.

14. Azərbaycan Respublikası Milli Məclisinin Mədəniyyət komitəsi üzvlərinin seçilməsi haqqında.

15. Azərbaycan Respublikası Milli Məclisinin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsi üzvlərinin seçilməsi haqqında.

16. Azərbaycan Respublikası Milli Məclisinin 2024-cü il payız sessiyasının qanunvericilik işləri planı haqqında.

17. Azərbaycan Respublikası Milli Məclisinin Xarici müdaxilələrə və hibrid təhdidlərə qarşı müvəqqəti komissiyasının yaradılması haqqında.

* * *

**Azərbaycan Respublikası Milli Məclisi deputatlarının vəsiqələri təqdim edilmişdir.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Məzahir Pənahov, İlqar Əlizadə

* * *

**Aşağıdakı məsələlər müzakirə edilmişdir:**

**Gündəlik haqqında.**

**Çıxış etmişdir:** Sahibə Qafarova

**Təklif:** Gündəlik qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.11 dəq.) |
| Lehinə | 118 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 119 |

Nəticə: Qəbul edildi

**1. Azərbaycan Respublikası Milli Məclisinin Hüquq siyasəti və dövlət quruculuğu komitəsi üzvlərinin seçilməsi haqqında.**

**Çıxış etmişdir:** Sahibə Qafarova

**Təklif:** Qərar qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.12 dəq.) |
| Lehinə | 119 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |

| | |
|---|---|
| Səs vermədi | 3 |
| İştirak edir | 122 |

Nəticə: Qəbul edildi

**2. Azərbaycan Respublikası Milli Məclisinin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsi üzvlərinin seçilməsi haqqında.**

**Çıxış etmişdir:** Sahibə Qafarova

**Təklif:** Qərar qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.12 dəq.) |
|---|---|
| Lehinə | 120 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 120 |

Nəticə: Qəbul edildi

**3. Azərbaycan Respublikası Milli Məclisinin İnsan hüquqları komitəsi üzvlərinin seçilməsi haqqında.**

**Çıxış etmişdir:** Sahibə Qafarova

**Təklif:** Qərar qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.13 dəq.) |
|---|---|
| Lehinə | 122 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 123 |

Nəticə: Qəbul edildi

**4. Azərbaycan Respublikası Milli Məclisinin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsi üzvlərinin seçilməsi haqqında.**

**Çıxış etmişdir:** Sahibə Qafarova

**Təklif:** Qərar qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.13 dəq.) |
| Lehinə | 121 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 122 |

Nəticə: Qəbul edildi

**5. Azərbaycan Respublikası Milli Məclisinin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsi üzvlərinin seçilməsi haqqında.**

**Çıxış etmişdir:** Sahibə Qafarova

**Təklif:** Qərar qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.14 dəq.) |
| Lehinə | 123 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 124 |

Nəticə: Qəbul edildi

**6. Azərbaycan Respublikası Milli Məclisinin Aqrar siyasət komitəsi üzvlərinin seçilməsi haqqında.**

**Çıxış etmişdir:** Sahibə Qafarova

**Təklif:** Qərar qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.14 dəq.) |
| Lehinə | 121 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 121 |

Nəticə: Qəbul edildi

**7. Azərbaycan Respublikası Milli Məclisinin Əmək və sosial siyasət komitəsi üzvlərinin seçilməsi haqqında.**

**Çıxış etmişdir:** Sahibə Qafarova

**Təklif:** Qərar qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.15 dəq.) |
| Lehinə | 123 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 123 |

Nəticə: Qəbul edildi

**8. Azərbaycan Respublikası Milli Məclisinin Səhiyyə komitəsi üzvlərinin seçilməsi haqqında.**

**Çıxış etmişdir:** Sahibə Qafarova

**Təklif:** Qərar qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.15 dəq.) |
| Lehinə | 122 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |

| | |
|---|---|
| Səs vermədi | 1 |
| İştirak edir | 123 |

Nəticə: Qəbul edildi

**9. Azərbaycan Respublikası Milli Məclisinin Ailə, qadın və uşaq məsələləri komitəsi üzvlərinin seçilməsi haqqında.**

**Çıxış etmişdir:** Sahibə Qafarova

**Təklif:** Qərar qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.16 dəq.) |
|---|---|
| Lehinə | 121 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 123 |

Nəticə: Qəbul edildi

**10. Azərbaycan Respublikası Milli Məclisinin Gənclər və idman komitəsi üzvlərinin seçilməsi haqqında.**

**Çıxış etmişdir:** Sahibə Qafarova

**Təklif:** Qərar qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.17 dəq.) |
|---|---|
| Lehinə | 124 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 124 |

Nəticə: Qəbul edildi

**11. Azərbaycan Respublikası Milli Məclisinin Regional məsələlər komitəsi üzvlərinin seçilməsi haqqında.**

**Çıxış etmişdir:** Sahibə Qafarova

| | |
|---|---|
| **Təklif:** Qərar qəbul edilsin | |
| **Səsvermənin nəticələri** | (saat 13.17 dəq.) |
| Lehinə | 123 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 123 |
| Nəticə: Qəbul edildi | |

**12. Azərbaycan Respublikası Milli Məclisinin Elm və təhsil komitəsi üzvlərinin seçilməsi haqqında.**

**Çıxış etmişdir:** Sahibə Qafarova

| | |
|---|---|
| **Təklif:** Qərar qəbul edilsin | |
| **Səsvermənin nəticələri** | (saat 13.18 dəq.) |
| Lehinə | 121 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 122 |
| Nəticə: Qəbul edildi | |

**13. Azərbaycan Respublikası Milli Məclisinin Mədəniyyət komitəsi üzvlərinin seçilməsi haqqında.**

**Çıxış etmişdir:** Sahibə Qafarova

**Təklif:** Qərar qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.18 dəq.) |
| Lehinə | 122 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 122 |

Nəticə: Qəbul edildi

**14. Azərbaycan Respublikası Milli Məclisinin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsi üzvlərinin seçilməsi haqqında.**

**Çıxış etmişdir:** Sahibə Qafarova

**Təklif:** Qərar qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.19 dəq.) |
| Lehinə | 121 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 121 |

Nəticə: Qəbul edildi

**15. Azərbaycan Respublikası Milli Məclisinin İctimai birliklər və dini qurumlar komitəsi üzvlərinin seçilməsi haqqında.**

**Çıxış etmişdir:** Sahibə Qafarova

**Təklif:** Qərar qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.19 dəq.) |
| Lehinə | 119 |

| | |
|---|---|
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 119 |

Nəticə: Qəbul edildi

**16. Azərbaycan Respublikası Milli Məclisinin 2024-cü il payız sessiyasının qanunvericilik işləri planı haqqında.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Zahid Oruc, Siyavuş Novruzov, Jalə Əliyeva, Aydın Mirzəzadə, Əli Hüseynli, Fazil Mustafa, Hikmət Məmmədov

**Təklif:** Qərar qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.53 dəq.) |
|---|---|
| Lehinə | 121 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 122 |

Nəticə: Qəbul edildi

**17. Azərbaycan Respublikası Milli Məclisinin Xarici müdaxilələrə və hibrid təhdidlərə qarşı müvəqqəti komissiyasının yaradılması haqqında.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Arzu Nağıyev, Ziyafət Əsgərov, Ramid Namazov, Kamran Bayramov, Rafael Hüseynov, Nizami Səfərov, Siyavuş Novruzov, Əli Əhmədov, Zahid Oruc, Bəhruz Məhərrəmov, Qüdrət Həsənquliyev, Mübariz Qurbanlı

**Təklif:** Qərar qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 14.48 dəq.) |
| Lehinə | 115 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 115 |

Nəticə: Qəbul edildi

**Azərbaycan Respublikası**
**Milli Məclisinin sədri** **Sahibə Qafarova**

# *MİLLİ MƏCLİSİN İCLASI*

*30 sentyabr 2024-cü il. Saat 12.*

*Azərbaycan Respublikası Milli Məclisinin sədri* ***Sahibə Qafarova*** *sədrlik edir*

**Sədrlik edən.** Xoş gördük, hörmətli deputatlar, hörmətli media nümayəndələri, hörmətli həmkarlar!

Yeddinci çağırış Milli Məclisin ilk sessiyasını – 2024-cü il payız sessiyasını açıq elan edirəm.

*(Azərbaycan Respublikasının Dövlət Himni səslənir.)*

Hörmətli deputatlar! Payız sessiyasının başlanması münasibəti ilə mən sizin hamınızı ürəkdən təbrik edirəm və sessiya dövründə fəaliyyətimizin səmərəli olmasını arzulayıram.

İndi isə xahiş edirəm, qeydiyyatdan keçək. Buyurun.

| | |
|---|---|
| **Qeydiyyat** | (saat 12.05 dəq.) |
| İştirak edir | 123 |
| Yetərsay | 83 |

Çox sağ olun, yetərsay var, iclasa başlaya bilərik.

Hörmətli həmkarlar, yeddinci çağırış Milli Məclisin bi-

rinci sessiyasına başlayarkən mən ilk növbədə Azərbaycan Respublikasının Prezidenti möhtərəm cənab İlham Əliyevə bir daha hamımızın minnətdarlığını bildirmək istərdim. Sentyabrın 23-də Milli Məclisin birinci iclasında söylədiyi dərin məzmunlu nitqində dövlət başçısı yaxın illərdə ölkəmizin inkişaf istiqamətlərini müəyyən etməli olan strateji hədəfləri və milli prioritetləri elan etdi. Parlament üzvləri olaraq biz möhtərəm Prezidentin irəli sürdüyü vəzifələrin konkret qanunvericilik tədbirlərində təcəssümünü tapması üçün məsuliyyət daşıyırıq. Biz təmin etməliyik ki, dövlətimizin qanunvericilik bazası həm milli prioritetlərimizə uyğun olsun, həm də xalqımızın və dövlətimizin inkişafı üçün möhkəm təməl yaratsın.

Hörmətli deputatlar, birinci iclasda etdiyim çıxışda mən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin parlamentin fəaliyyəti barədə fikirlərinə əsaslanaraq yeddinci çağırış Milli Məclisin qarşısında dayanan vəzifələr barəsində baxışlarımı bölüşmüşdüm. İndi isə qısa olaraq bir daha qeyd etməliyəm ki, biz ölkəmizin tarixinin tamamilə yeni bir mərhələsinə qədəm qoymuşuq. Xalqın təmsilçiləri kimi biz sürətlə dəyişən dünyada Azərbaycanın xoşbəxt gələcəyini təmin edə bilən dəyərləri rəhbər tutmalıyıq.

Hörmətli həmkarlar, parlamentin gücü onun kollektiv zəkasındadır. Bizim birgə ahəngdar fəaliyyətimiz ən mürəkkəb problemlərin həllinə yol aça bilər. Eyni zamanda, Milli Məclisin ayrılıqda hər bir üzvünün fəaliyyəti bu gün çox böyük əhəmiyyətə malikdir. Qeyd etmək lazımdır ki, müasir dünyanın mürəkkəb şəraiti bizdən hər bir məsələyə milli və beynəlxalq reallıqları dərindən başa düşməklə və onları nəzərə almaqla yanaşmağı tələb edir.

Hörmətli həmkarlar, mən bu fikirlərimi sizinlə bölü-

şərək əmin olduğumu bildirmək istəyirəm ki, biz birlikdə elə fəaliyyət göstərəcəyik ki, möhtərəm cənab Prezident İlham Əliyevin daxili və xarici siyasətinin qanunvericilik bazasını möhkəmləndirmək üçün Milli Məclis öhdəsinə düşən vəzifələri bundan sonra da layiqincə yerinə yetirsin.

Hörmətli həmkarlar, bizim payız sessiyamız Azərbaycan tarixinin ən şərəfli dövrləri ilə üst-üstə düşür. Dörd il bundan əvvəl – 2020-ci ilin payızında, eləcə də ötən ilin sentyabr ayında müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qəhrəman Azərbaycan Silahlı Qüvvələri düşmənə sarsıdıcı zərbələr endirmiş, torpaqlarımızın 30 illik işğalına son qoymuşlar. Üç gün öncə – sentyabrın 27-də dövlət başçısının iştirakı ilə keçirilən Anım Günündə Azərbaycanın ərazi bütövlüyü və suverenliyi uğrunda döyüşlərdə həlak olmuş əsgər və zabitlərimizin, qətlə yetirilmiş mülki vətəndaşlarımızın və itkin düşmüş soydaşlarımızın xatirəsi dərin ehtiramla yad edildi.

Azərbaycan düşmən üzərində tarixi qələbələri xalqımıza bəxş etmiş müzəffər sərkərdəmiz İlham Əliyevə, cəsur əsgər və zabitlərimizə əbədi olaraq minnətdardır. *(Alqışlar.)*

Hörmətli həmkarlar, artıq Milli Məclisdə gözəl bir ənənə yaranıb. Bu da ondan ibarətdir ki, hər çağırışın birinci sessiyasının əvvəlində millət vəkillərinə deputat vəsiqələri təqdim edilir.

Bu gün Mərkəzi Seçki Komissiyasının sədri hörmətli Məzahir Pənahov və komissiyanın hörmətli üzvləri buradadırlar. Siz, hörmətli deputatlar, siyahı üzrə buraya dəvət edilib deputat vəsiqələrinizi təhvil alacaqsınız.

Mən indi sözü hörmətli Məzahir müəllimə vermək istəyirəm. Məzahir müəllim, kürsüyə buyurun. Sizə diqqətlə qulaq asacağıq. Buyurun.

**Məzahir Pənahov,** *Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının sədri.*

Milli Məclisin çox hörmətli sədri Sahibə xanım, hörmətli sədarət, hörmətli millət vəkilləri! Hər şeydən əvvəl, icazə verin, bu il sentyabrın 1-də keçirilmiş növbədənkənar Milli Məclis seçkilərində parlaq qələbə qazanıb deputat seçilməyiniz münasibəti ilə sizi öz adımdan, Mərkəzi Seçki Komissiyası adından ürəkdən təbrik edim. *(Alqışlar.)*

Bu seçkilər Azərbaycan tarixinə düşən xüsusi əhəmiyyətli seçkilər oldu. Yəqin ki, zalda oturanların hər biri bunun əhəmiyyətini həm çox gözəl bilir, həm də bunu qiymətləndirir. Çünki bu ilin fevral ayında keçirilmiş Prezident seçkilərindən sonra bu, birinci seçkilər idi ki, müasir Azərbaycanın beynəlxalq miqyasda, beynəlxalq ictimaiyyət tərəfindən tanındığı əraziləri daxilində təşkil olunmuşdu. Səsvermə bütün bölgələrdə keçirilirdi.

2020-ci ildə Ali Baş Komandan, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev cənablarının əmri ilə Azərbaycan Silahlı Qüvvələri Zəfər yürüşünə başladı, 44 gündə bizim ərazi bütövlüyümüzü təmin etdi. 30 ildən artıq işğal altında olan ərazilər azad edildi. 2023-cü ilin 20 sentyabr hadisələrində isə cəmi 23 saat ərzində Azərbaycan torpaqlarında bu və ya digər formada sığınacaqlar tapıb orada məskunlaşmış terrorçu qüvvələr də artıq ərazilərimizi tərk etmək məcburiyyətində qaldılar. Beləcə, Azərbaycanın həm ərazi bütövlüyü, həm də suverenliyi təmin edildi. Bundan sonra biz bu ilin fevral ayında ilk olaraq məhz Azərbaycan Respublikası Prezidenti seçkilərini həyata keçirtdik. Biz bununla həmişə fəxr edirik, çünki bu, ilk Zəfər seçkisi oldu. Müasir Azərbaycanın tanınan bütün ərazilərində səsvermə həyata keçirildi. Milli Məclisə

keçirilən seçkilər isə həmin qəbildən olan ilk seçkilərdən idi.

Yeri gəlmişkən, deyim ki, 6 milyon 433 mindən bir az artıq seçicimiz siyahıya alınmışdır. Seçicilərin səs verməsi üçün 6478 məntəqə var idi. Bu məntəqələrdən 54-ü işğaldan azad olunmuş ərazilərdə yaradılmışdı və çox böyük məmnuniyyətlə deyə bilərəm ki, biz bu məntəqələrdə keçirilən seçkilərə çox diqqətlə yanaşırdıq. 600-ə yaxın beynəlxalq müşahidəçi var idi. Onlardan bəziləri xoş məqsədlə, bəziləri isə digər səbəblərdən bu prosesə maraq göstərirdilər. Biz də əlimizdən gələni etdik ki, onlar o bölgələrdəki səsverməni izləyə bilsinlər. Orada səsvermənin rahat izlənməsi prosesi həyata keçirildi. Mütləq mənada deyə bilərəm ki, bizim bütün o məntəqələrimizdə həyata keçirilən səsvermə ilə bağlı heç bir tərəfin – nə Azərbaycanın işğaldan azad olunmuş ərazilərinin özünə qaytarılmasına sevinən tərəflərin, nə də digər tərəflərin heç bir iradı olmadı. Səsvermə çox yüksək səviyyədə təşkil edilmişdi. Mən inanıram ki, Böyük Qayıdış proqramına əsasən yaxın vaxtlarda həm beynəlxalq tələblərə cavab verən yüksək səviyyədə infrastruktur bazasının yaradıldıqdan, həm də insanların yaşayışı üçün lazım olan bütün şərait təmin edildikdən sonra biz növbəti seçkiləri artıq o bölgələrdə də həyata keçirəcəyik və seçicilər öz tarixi ərazilərində səs verəcəklər. Mən vurğuladım ki, bu seçkilərin tarixə düşməsinin, hamı üçün əziz olmasının əsas səbəbi o idi ki, Prezident seçkiləri də, parlament seçkiləri də bütün Azərbaycanda ilk dəfə keçirildi.

Mən hesab edirəm ki, bu seçkilərin keçirilməsi ilə bağlı bəzi detalların üzərində qısaca dayanmağa ehtiyac var, amma geniş əhəmiyyətli danışmağa da ehtiyac yoxdur. Çünki hamınız bu prosesin iştirakçısı olmusunuz. Birinci

dəfə idi ki, Milli Məclisə seçkilərdə Azərbaycanda fəaliyyət göstərən 26 siyasi partiyadan 25-nin nümayəndələri iştirak etdi. Yəni 25 siyasi partiya Mərkəzi Seçki Komissiyasına rəsmi şəkildə müraciət etdi. Biz onların səlahiyyətli nümayəndələrini və sənədlərini təsdiq etdik. Həmin siyasi partiyalar 125 seçki dairəsinin hamısında bu və ya digər sayda iştirak etdilər. Hesab edirəm ki, nəticədə bu siyasi partiyaların fəaliyyəti ictimaiyyətin digər təbəqələrini də müəyyən fəaliyyətə, seçkilərə maraq göstərməsi baxımından o öz müsbət təsirini göstərdi.

Cənab Prezident müvafiq sərəncamı imzaladıqdan sonra, yəni sentyabrın 1-ə növbədənkənar Prezident seçkilərini təyin etdikdən sonra Mərkəzi Seçki Komissiyası həmişə olduğu kimi təqvim planı hazırlayıb, Seçki Məcəlləsinin və digər qanunvericilik aktlarının tələblərinə uyğun olaraq, bu seçki addımlarını tənzimlədi. O addımların hamısı çox yüksək səviyyədə həyata keçirildi və biz cəmiyyətin müxtəlif təbəqələrinin bu seçkilərə marağının şahidi olduq. Yenə təkrar edirəm, burada da siyasi partiyaların ciddi marağı əhəmiyyətli rol oynadı. Çünki partiyalar mütəşəkkil qurumlardır. Onların tərəfdarları o proseslərin gedişindən razı qalanda həmin seçkilər haqqında çox düzgün, obyektiv təsəvvür yaranır.

Seçki prosesində mövcud bir neçə mərhələni vurğulamağa ehtiyac var. Namizədlərin irəli sürülüb qeydə alınması, onların təşviqat mərhələsi, səsvermə və səsvermənin nəticələrinin ortaya qoyulması. Biz mübaliğəsiz deyə bilərik ki, namizədlərin irəli sürülüb qeydə alınması mərhələsində Mərkəzi Seçki Komissiyasına bir neçə müraciət daxil oldu. Biz də o namizədlərin xeyrinə maksimum addımlar atdıq, orada qərarlar çıxardıq, onların namizədliyini bərpa etdik. Lakin bəzi hallarda rəsmi

sənədlər o namizədləri qeydə almağa, onların namizədliyini bərpa etməyə artıq imkan vermirdi. Yəni dairədə onlara rədd cavabı verilmişdi. Bilirsiniz, bizim iclaslarımızın hamısı kütləvi informasiya vasitələrinin, yəni media nümayəndələrinin, beynəlxalq müşahidəçilərin, ATƏT-in və ATƏT-in Parlament Assambleyasının nümayəndələrinin də iştirakı ilə həyata keçirilir. Biz orada hər şeyi açıq şəkildə nümayiş etdirmişik. Seçki mərhələlərində bizə edilən müraciətlərdən başqa nə təşviqat müddətində, nə də səsvermə günü Mərkəzi Seçki Komissiyasına heç bir müraciət daxil olmadı.

Onu deyim ki, əvvəllər bu təşviqatla bağlı müəyyən əsaslı, əsassız müraciətlər daxil olurdu. Çünki bəzi namizədlər yerlərdə görüşlərini təşkil edəndə insanların ora gəlməməsini bu və ya digər formada başqa səbəblərlə əlaqələndirməyə çalışırdılar. Bunun qarşısını almaq üçün, bilirsiniz, ümumən bəzi şəraiti yaratmaq ölkə rəhbərliyinin vəzifəsidir, icra hakimiyyətinin, icra strukturunun borcudur. Məntəqələrə, aşağı seçki komissiyalarına, Mərkəzi Seçki Komissiyasına öz fəaliyyətlərini Seçki Məcəlləsinin tələbinə uyğun qurmaq üçün dünyada nümunə ola biləcək şərait yaradılıbdır. Eyni ilə namizədlərə də seçicilərlə görüşmələri üçün bəlkə də analoqu olmayan imkan yaradıldı. 5 mindən artıq ünvan Mərkəzi Seçki Komissiyasının səhifəsinə qoyuldu. Müqayisə üçün deyim ki, hər bir dairədən 16 qapalı məkanın ünvanı qoyulmuşdu. Bizim ən çox namizədi olan dairəmizdə isə 13 namizəd var idi. Hətta bütün namizədlərin eyni saatda, eyni dairədə görüş keçirməsi üçün hələ 3 ünvan da ehtiyatda saxlayırdıq ki, baş verə biləcək müəyyən halların qarşısını alaq. Açıq məkanlarla bağlı isə biz məcazi mənada səsləndirdik ki, Azərbaycanın istənilən bölgəsində, seçicilər ilə görüşmək

imkanı olan hər yerdə namizədlərlə görüşlər keçirilməsinə icazə verilib. Ona görə də bu təşviqatla, namizədlərin seçiciləri ilə görüşlərlə bağlı Mərkəzi Seçki Komissiyasına heç bir rəsmi narazılıq daxil olmadı. Bilirsiniz ki, bizim qaynar xəttimiz var: 155. Ora da, demək olar, heç bir müraciət daxil olmayıb.

Səsvermə günü məntəqələrin səhər saat 8-də açılması əsas şərtdir. Bütün 6478 məntəqəmiz vaxtında açıldı. Gün ərzində gedən prosesləri 112 min 700 nəfərdən artıq yerli müşahidəçi, 598 nəfər də beynəlxalq müşahidəçi izləyirdi.

Bilirsiniz ki, Azərbaycanda mətbuat nümayəndələri azaddır. Onlar ölkənin bütün bölgələrində sərbəst müşahidə aparırlar. Bizim onlarla daim əlaqələrimiz var idi. Heç bir beynəlxalq müşahidəçidən Mərkəzi Seçki Komissiyasına bu və ya digər pozuntu ilə bağlı müraciət daxil olmamışdı. Məcəllənin tələbinə görə, biz səsvermə günü Mərkəzi Seçki Komissiyasına daxil olan hər bir müraciətə dərhal baxmalıyıq.

Dünyada müasir, ədalətli seçkilər üçün standartlar formalaşıb. Bu mərhələlər də belə yüksək səviyyədə, şəffaf və ədalətli, müasir demokratik prinsiplərə uyğun gəldiyinə görə mən bu rəqəmləri səsləndirirəm. Dünyanın heç bir yerində 10 milyon əhalisi olan bir ölkədə 112 min yerli müşahidəçi bu prosesə nəzarət etməyib. Mətbuat orqanları seçkiləri azad şəkildə, istədikləri formada, hətta müşahidəçilərdən də daha yüksək hüquqla, statusla orada iştirak etsinlər, öz dinləyicilərini, ya tamaşaçılarını baş verən proseslərlə tanış etsinlər... Belə şərait heç yerdə yoxdur.

Mən müşahidə məsələsinin üzərində ona görə xüsusən dayanmaq istəyirəm ki, dediklərim dünya miqyasında indiyə qədər ən yüksək göstəricilərdir. Bu seçkiləri müşahidə etmək üçün Milli Məclisin dəvət etdiyi böyük və

peşəkar parlament nümayəndə heyətləri ilə yanaşı, Xarici İşlər Nazirliyi də öz xətti ilə, – mən o qurumları artıq nəzərə almıram, siz onları yaxşı tanıyırsınız, – Mərkəzi Seçki Komissiyası da xüsusi seçki komissiyalarını dəvət etmişdi. Onların sədrlərinin, yaxud müavinlərinin rəhbərliyi ilə nümayəndə heyətləri bura gəlmişdilər. Mən sizə onun coğrafiyasını deyim. Filippindən, Maldiv adalarından tutmuş Böyük Britaniya və Avropa ölkələrinə qədər seçki komissiyalarının rəhbərlərinin iştirakı ilə peşəkar seçki nümayəndələri iştirak edirdilər. Onlar hamısı bilir ki, ölkədə seçkilərin keçirilməsi üçün hansı tələblər olmalıdır. Bir az təvazökarlıqdan kənar olsa da, mən mübaliğəsiz deyirəm ki, onlar Azərbaycanda yaradılan şəraiti özləri üçün daimi nümunə kimi götürürlər və beynəlxalq təşkilatlarda birgə görüşlərimizdə də bunu bir növ çəkinmədən vurğulayırlar.

Bütün bu məsələlərin içərisində bir nümunə var ki, onun dünyada analoqu yoxdur. Bu da veb-kamera praktikasıdır. Veb-kamera müasir dünyada elmin, texnologiyanın inkişafı sayəsində səsvermənin şəffaf və ədalətli keçirilməsini ən obyektiv şəkildə ortaya qoymaq imkanı yaradan bir üsuldur. Hesab edin ki, Azərbaycanda 1000 məntəqədə veb-kamera qoyulur. Bunu ona görə həmişə və hər yerdə xüsusilə vurğulayırıq ki, bu veb-kamera praktikası Azərbaycan Respublikası Prezidentinin təklifidir, onun təşəbbüsüdür. Dövlət başçısı bu təşəbbüsü 2008-ci ildə irəli sürüb. Azərbaycanda 1000 məntəqədə veb-kamera qoyulub. Yerlər də elə seçilir ki, bu 1000 məntəqə Azərbaycanın coğrafiyasını əhatə etsin. Həmçinin o veb-kameralara daxil olmaq üçün heç bir icazə almağa ehtiyac yoxdur. Dünyanın istənilən nöqtəsindən bu prosesi izləmək mümkündür. Məcəllənin tələbinə əsasən səhər

saat 8-in yarısından namizədlərin, onların səlahiyyətli nümayəndələrinin və mətbuat nümayəndələrinin iştirakı ilə orada hazırlıq işləri gedir. Saat 8-də məntəqələr açılır, axşam saat 7-yə qədər səsvermə davam edir. Saat 7-də qapılar bağlanır. İçəridəkilər səs verir, sonra müvafiq addımlar atılır, səslər sayılır, yekun protokol tərtib olunur, dairə seçki komissiyasına göndərilir. Bütün bu mərhələlər daxil olmaqla arasıkəsilməz rejimdə məntəqə daxilində baş verənləri, mübaliğəsiz deyə bilərəm ki, televiziya kanalında necə görürsünüzsə, həmin yüksək keyfiyyətlə o veb-kameraların standartlarına əsasən izləmə imkanı var.

Azərbaycanda bu şəraitin yaradılması Məcəllənin tələbi deyil. Beynəlxalq praktikada da belə şey etməzlər. Sadəcə, Azərbaycan bütün dünyaya nümunə göstərir ki, ölkədə demokratik, şəffaf, ədalətli seçkilərin keçirilməsi üçün siyasi iradə var. Çünki ümumi siyasi iradə məsələsi bu seçkilərin keçirilməsindən ötrü tələb olunan hallar içərisində yazılmamış bir tələbdir. Bütün dünya qəbul edibdir ki, əgər ölkənin idarəçiliyində ədalətli, şəffaf, demokratik seçkilərin keçirilməsi üçün siyasi iradə yoxdursa, o seçkiləri keçirmək çətin olar. O iradənin ən yüksək göstəricisi də 1000 məntəqədə veb-kameranı qoyaraq dünyanın istənilən ölkəsindən Azərbaycanda gedən proseslərin izlənməsi üçün şəraitin yaradılmasıdır. Yeri gəlmişkən, mən deyim ki, bu il bununla bağlı həmin o sayta artıq 500 mindən çox müraciət daxil olmuşdur. Keçən dəfə biz bunu Prezident seçkiləri üçün vurğulamışdıq. Məsələn, Prezident seçkilərində prosesi ən çox izləyən Amerika Birləşmiş Ştatları, sonra Böyük Britaniya idi. İndi bu parlament seçkiləri üçün də biz onun üzərində işləyirik və yaqin, nəticələri də sizə çatdıracağıq.

Mən bunu xüsusilə vurğulamaq istəyirəm ki, hansı isə

marağı olan heç bir ölkədə veb-kamera qoymaq qəti olmaz. Çünki veb-kameranı qoymaq məntəqənin daxilində baş verən proseslərin hamısını bütün dünyanın gözü qarşısında nümayiş etdirməkdir. Ola bilər ki, bir az ətraflı danışıram, məni bağışlayasınız, amma bunlar deyilməli məsələlərdir. Hesab edin ki, biz bu veb-kameralar vasitəsi ilə 1000 məntəqədə müşahidə aparmaq imkanı yaradırıq. Nə Azərbaycana gəlməyə, nə də kimdənsə icazə almağa ehtiyac yoxdur. Yerində oturub, elə saytdan...

Heç bir müşahidə missiyasının, ATƏT-in missiyası da daxil olmaqla, 1000 məntəqədə müşahidə aparmaq imkanı yoxdur. Yəni o vaxt cənab Prezident tərəfindən 1000 rəqəmi elə-belə seçilməmişdi. Ona görə seçilib ki, 1000 məntəqədə bizim 6478... Azərbaycan praktikası, dediyimiz bu veb-kamera praktikası bizim məntəqələrin 10 faizində tətbiq olunurdu. Heç bir müşahidə missiyası 1000 məntəqədə müşahidə apara bilməz. Üstəgəl də, 1000 məntəqədə əvvəldən axıradək müşahidə aparmaq mümkün deyildir. Bir məntəqədə 20 dəqiqə, digərində yarım saat və sair. Amma burada biz şərait yaradırıq ki, bütün dünyadan 1000 məntəqədə əvvəldən axıra qədər müşahidə apara bilsinlər. Ona görə bu, analoqu olmayan bir haldır. Bu, istənilən ölkədə tətbiq edilsə, o ölkədə siyasi iradənin ortada olması ilə bağlı mübahisə ola bilməz. Çünki bu, ən yüksək göstəricidir. Ona görə biz bunu həmişə çox böyük ruh yüksəkliyi ilə vurğulayırıq. Sevindirici hal odur ki, beynəlxalq praktikada bu, Azərbaycan praktikası kimi artıq öz yerini tutubdur.

Bilirsiniz ki, bizim əlaqələrimizin coğrafiyası genişdir. Biz tədbirlərdə iştirak edirik. Hamısında da bu hal çox vurğulanır, həmin ölkələrin özləri üçün o təkliflər irəli sürülür. Amma hesab edirik ki, indiyə qədər çox az sayda

ölkə bundan istifadə edə bilib. Çünki bu proses büdcədən kifayət qədər vəsait ayrılmasını tələb edir. Özü də bu vəsait təkcə seçkilər vaxtı ayrılmır. Bu proses gərək elə təmin olunsun ki, seçki elan olunan kimi veb-kameralar hazır olsun. İnformasiya təhlükəsizliyi şöbəsi var, bu yaxınlarda yaradılıbdır. Onların fəaliyyəti çox peşəkar səviyyədədir. Bunu xüsusi vurğulamaq istəyirəm. Elə bu seçkilərdə 10 dəfəyə yaxın bu xətləri sındırmağa çalışmışdılar. Amma onlar bunun qabağını vaxtında almışdılar. Bu proseslər pərdə arxasında olduğu üçün istədim ki, bizim hörmətli parlament nümayəndələri də bu detallarla tanış olsunlar. Bu və ya digər görüşlərdə stereotip fikirli insanlar, misal üçün, Azərbaycanda 50 il əvvəl və ya Sovet vaxtındakı hadisələri əsas götürüb, öz siyasi maraqlarını ortaya qoymaq üçün fikirlərini əsaslandırmağa çalışırlar. Əlimizdə elə arqumentlər var ki, onları mübahisələndirmək mümkün deyil. Ona görə mən bu məsələlərin bəzilərini diqqətinizə çatdırmaq istədim. Onu da deyim ki, Azərbaycanda müşahidə aparmaq üçün müraciət edən heç kimə “yox” cavabı verilməyib. Məhz ona görə bizim 112 min 700 nəfər müşahidəçi olubdur. Kim müraciət edibsə, hamısına şərait yaratmışıq.

Bu, ümumi məsələlər idi. İndi konkret olaraq bülletenlərə keçirəm. 990 namizəd daxil olmuşdu. 1500-ə yaxın namizəd qeydə alınmışdı. Amma onlardan müəyyən qədəri qeydə alındıqdan sonra sənədlərini geri götürmüşdülər. 990 nəfərin tərkibinə 25 siyasi partiyanın nümayəndələri daxil idi. Həmin siyasi partiyaların özlərinin irəli sürdüyü namizədlərdən başqa partiya mənsubiyyəti olan namizədlər də var idi. Ümumilikdə o rəqəmi götürsək, təxminən elə namizədlərin yarısından çoxunu təşkil edirdi. Dəqiq rəqəm mənim yadımdan çıxıb, indi onu sizin diqqətinizə

çatdıra bilmirəm. Bunlar səsvermədə, ümumiyyətlə, bu proseslərdə ictimaiyyətin müxtəlif təbəqələrinin geniş marağının olmasını göstərən faktlardır. Yekunda bizim 990 namizədimiz var idi, onlar seçki bülleteninə daxil edildi. Orada 25 siyasi partiyanın özlərinin birbaşa irəli sürdüyü namizədlər var idi. Onların təqribən üçdə birindən çoxu – 305 nəfəri həmin namizədlər idi. Amma ümumi partiya mənsubiyyəti olanlar onun yarısından çox idi. Səsvermə günü o proseslər çox şəffaf keçdi. Hamınız bu məsələnin içindəsiniz.

Sosial şəbəkələrdə dairələrdən görüntülər var idi. Mən rəqəmdə bir az səhv edə bilərəm. Biz 582-ni qruplaşdırmışdıq. Təxminən 900-ə yaxın ad var idi. Onlar 14 dairənin 58, ya da 48 məntəqəsini əhatə edirdi. Təsəvvür edin, 125 dairənin 14-dən görüntülər var. O görüntülərin də 90 faizi həmin məntəqələrdə səsvermənin normal şəraitdə getdiyini göstərir. Biz orada daxil olan müraciətləri birlikdə geniş araşdırdıq. Biz sosial şəbəkələri araşdırmaya bilərik. Bizə gərək müraciət daxil olsun. Amma buna baxmayaraq, biz 2020-ci il seçkilərindən sonra ictimai bir konsensus formalaşdırmışıq, bizim heç nədən çəkinəcəyimiz yoxdur. Hətta sosial şəbəkələrdəki görüntüləri də geniş araşdırırıq. Özü də bu araşdırmaların hamısını maraqlı olan tərəflərin iştirakı ilə aparmışıq. Onu da deyim sizə. ATƏT-in müşahidə missiyası ilə birgə həyata keçirmişik.

Biz veb-kameralarımızı heç o qədər qabağa çəkməmişik ki, cəmi 46 məntəqədə kameraları ləğv etdiyimiz görünsün. Onların hamısı bizə daxil olan müraciətlərə əsasən rahat ləğv edilib? Elə deyil, biz onları –14, ya 16 məntəqəni öz veb-kameralarımızda görüntülərə əsasən ləğv etmişik. Yəni bunların bizə şikayət etdiyi məntəqələrin cəmi onun üçdə ikisi olsun, fərqi yoxdur. Nəyi

deмək istəyirəm? Bunlar 6478 məntəqə içərisində elə rəqəmlərdir ki... Biz buna çox ciddi yanaşırıq. Məsələn, ümumi ləğv olan məntəqələrin sayı 46-ya çatmışdı. Yəni bu, adi rəqəmdir. 35 məntəqəni seçki komissiyasında buraxmışdıq. Bu proseslər, ümumilikdə, seçkilərin nə dərəcədə normal, müasir tələblərə cavab verən səviyyədə keçdiyini göstərir.

Bilirsiniz ki, hər məntəqədə siyasi partiyalar iştirak edirdilər. Təkcə onların hər məntəqə üçün 10 müşahidəçisi var idi. Orada hansı isə bir hadisə olduqda bunu o an diqqətə çatdırırdılar. Ortada olan bütün rəqəmlər ən kritik yanaşma nəticəsində ortaya qoyulmuş rəqəmlərdir. Mən bunu sizin qarşınızda çox məsuliyyətlə vurğulayıram. Hesab edirəm ki, bu, çox böyük bir nailiyyət idi. Əslində, biz başqa bir şey də gözləmirdik. Çünki 44 günlük müharibə, Zəfər yürüşü və sonra ötən ilin sentyabr ayında həyata keçirilən antiterror tədbirləri Azərbaycan xalqını artıq tamam başqa bir mərtəbəyə qaldırıb. Azərbaycan xalqı artıq dünyada hüququ olan və o hüquqa haqqı olan bir xalqdır və həmin o addımları da qiymətləndirir. Xalqımız başa düşür ki, hər bir vətəndaş ölkənin həyatında fəal iştirak etməlidir. Azərbaycan düzgün yoldadır. Ona görə gələcəyə çox optimist bir yanaşma nümayiş etdirmək hamımızın borcudur.

Milli Məclisə seçkilər başa çatdıqdan sonra Mərkəzi Seçki Komissiyasına müraciətlər daxil oldu. Bizim icraatımıza aid olan 22 müraciət daxil olubdur. Biz Mərkəzi Seçki Komissiyasının gündəlik iclaslarını keçirirdik, müəyyən qərarlar alırdıq. O, aidiyyəti pozulmaq şərti ilə bizə göndərilən müraciətlər idi. Onlar dairəyə getməli idi ki, sonra bizə gəlsin. Biz də bunu dairəyə elə göndərirdik ki, artıq həmin axşam baxsınlar, səhər də bizə qayıtsın.

Sonra mübahisələndirməsinlər ki, siz bu işləri qəsdən yubadırsınız. Bunların hamısından sonra bizim icraatımıza cəmi 22 şikayət daxil olub. Mərkəzi Seçki Komissiyası qərar qəbul edib. Məhz ayın 16-da artıq bütün müraciətlərə baxdığımıza görə, nəticələr ortada olduğuna görə səsvermənin nəticələrini Mərkəzi Seçki Komissiyası tərəfindən yekunlaşdırmaq imkanımız oldu. Yeri gəlmişkən, deyim ki, biz bir ənənəni də gözlədik, səsvermə günü – gecə, – düzdür, bir az gecikdi, müəyyən səbəblər var idi, amma səsvermə ilə bağlı deyildi, – artıq 125 dairənin hamısında lider namizədlərin adını çəkdik. Bizdən də əvvəl 3 təşkilatımız "exit-poll" keçirirdi. Onların da ikisi öz beynəlxalq tərəfdaşları ilə – biri Amerika Birləşmiş Ştatlarının, digəri isə İtaliyanın çox tanınmış şirkətləri ilə "exit-poll" keçirirdi. Onların da nəticələri bizim gecə səsləndirdiyimiz nəticələrlə eynilik təşkil edirdi. Ona görə biz qısa müddətdən sonra Mərkəzi Seçki Komissiyası səviyyəsində bu məsələlərə yekun vurduq və təsdiq olunması üçün Seçki Məcəlləsinin tələbinə əsasən Konstitusiya Məhkəməsinə göndərdik. Konstitusiya Məhkəməsi də qısa müddətdə bizim təqdim etdiyimiz sənədləri təsdiq etdi və artıq Milli Məclis formalaşdı. Birinci iclasda ölkə Prezidentinin də iştirakı ilə tərkibi artıq müəyyənləşdi.

Mərkəzi Seçki Komissiyası seçkilərin hazırlanıb keçirilməsi ilə bağlı şərəfli missiyanı yerinə yetirdi. İndi isə ondan da az şərəfli olmayan bir missiyanı həyata keçirməliyik. Biz Mərkəzi Seçki Komissiyası olaraq Milli Məclis üzvlərinə vəsiqələr təqdim etməliyik. Hörmətli sədr, icazə versəniz, biz vəsiqələri təqdim edərdik. Bir daha sizi təbrik edirəm. İcazə verin, öz funksiyamızı yerinə yetirək. *(Alqışlar.)*

**Sədrlik edən.** Məzahir müəllim, geniş, ətraflı məlumata görə çox sağ olun. Təbii, başlayaq. Buyurun.

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Sizə necə rahatdır. Fərid müəllim, xahiş edirəm, növbəsi çatan digər deputatlar artıq orada öz yerlərini tutsunlar. Bunu təmin edin. Buyurun.

**İlqar Əlizadə,** *Mərkəzi Seçki Komissiyası Katibliyinin müdiri.*

Əhmədov Əli Cavad oğlu.
Əsgərov Ziyafət Abbas oğlu.
Qasımlı Musa Cəfər oğlu.
Hüseynov Rafael Baba oğlu.
Novruzov Siyavuş Dünyamalı oğlu.
Möhbalıyev Səttar Suliddin oğlu.
İbrahimov Eldar Rza oğlu.
Həmzəyeva Ülviyyə Tapdıq qızı.
Rəhimzadə Vüqar Gəncəli oğlu.
Arpadarai Nigar Cavid qızı.
Quliyev Azay Əjdər oğlu.
Qafarov Kamaləddin Nəsrəddin oğlu.
Musayev Elşad Nəbi oğlu.
Xasayeva Səbinə Səməd qızı.
Məmmədov Soltan Teymur oğlu.
Paşayeva Gülşən Məmmədəli qızı.
Əfəndiyeva Günay Elçin qızı.
Quliyev Ülvi Zahid oğlu.
Qədirli Erkin Toğrul oğlu.
Qəhrəmanov Göydəniz İbrahim oğlu.
Musabəyov Rasim Nəsrəddin oğlu.
Məmmədov Hikmət Baba oğlu.
Vəliyev Samir Əhməd oğlu.
İbrahimqızı Məlahət İbrahim qızı.

Mollazadə Asim Nazim oğlu.
Səmədzadə Ziyad Əliabbas oğlu.
Nurullayeva Könül Oruc qızı.
Mustafa Fazil Qəzənfər oğlu.
Əli-zadə Arzuxan Baxşəli oğlu.
Quliyev Eldar Allahyar oğlu.
Allahverənov Azər Kərim oğlu.
Fətəliyeva Sevinc Həbib qızı.
Məmmədov Qaya Məmməd oğlu.
Həsənova Afət Əbil qızı.
Oruc Zahid Məhərrəm oğlu.
Zabelin Mixail Yuryeviç.
Vəliyeva Pərvanə Bulut qızı.
Həsənquliyev Qüdrət Müzəffər oğlu.
Hüseynov Aydın Nəsir oğlu.
Həmzəyev Naqif Ələşrəf oğlu.
Kərimzadə Pərvin Orxan qızı.
Quliyev Musa İsa oğlu.
Cəfərov Müşfiq Cəfər oğlu.
Hüseynova Hicran Kamran qızı.
Mirkişili Tahir Famil oğlu.
Vəliyeva Mehriban Hidayət qızı.
Salmanova Səbinə Qədir qızı.
Akimova Elnarə Seydulla qızı.
Şükürov Zaur Ramiz oğlu.
Məmmədova Nigar Fikrət qızı.
Nəbiyev Rizvan Novruz oğlu.
Namazov Ramid Zakir oğlu.
Əsədov Heydər Xanış oğlu.
Məmmədov İlham Kazım oğlu
Hüseynli Əli Məhəmməd oğlu.
Mirzəzadə Aydın Böyükkişi oğlu.

Məmmədli Müşfiq Fazil oğlu.
Süleymanlı Mahir Tahir oğlu.
Vəliyev Ağalar İsrəfil oğlu.
Mikayılova Sevil Əlirazı qızı.
Məhərrəmzadə Əlibala Səttar oğlu.
Rafailov Anatoliy Xaimoviç.
Badamov Azər Camal oğlu.
Ağazadə Əminə Həmid qızı.
Qurbanov Sadiq Haqverdi oğlu.
Ağamalı Günay Fəzail qızı.
Ələkbərov Əziz Yusif oğlu.
Əmiraslanov Əhliman Tapdıq oğlu.
Cəfərov Kamal Xaqani oğlu.
Məhərrəmov Bəhruz Abdurrəhman oğlu.
Rüstəmxanlı Tənzilə Yolçu qızı.
Həsənov Malik Əvəz oğlu.
Nəsirov Elman Xudam oğlu.
İbrahimli Fəzail Feyruz oğlu.
Məmmədov Məşhur Şahbaz oğlu.
Paşazadə Cavanşir Hümmət oğlu.
İsmayılzadə Fariz Akif oğlu.
İsgəndərov Anar Camal oğlu.
Mahmudov Rəşad Məmmədqulu oğlu.
Qafarov Vasif Vaqif oğlu.
Nurullayev Razi Qulaməli oğlu.
Salahlı Səyyad Adil oğlu.
İsmayılov Şahin Əmir oğlu.
Bayramov Vüqar İbad oğlu.
Abbasov Aqil Məhəmməd oğlu.
Rzayev Tahir Musa oğlu.
Seyidzadə Şahin Kamil oğlu.
Cəfərova Tamam Şaməmməd qızı.

Aslanov Novruzəli Davud oğlu.
Mirzəbəyli Elçin Əbdülrəhim oğlu.
Hacıyev Sabir Kamal oğlu.
Əfəndiyev Məzahir Cavid oğlu.
Alıyev Sahib Eyvaz oğlu.
Həsən Ramil Sahib oğlu.
Əliyeva Jalə Fazil qızı.
Bədəlov Bədəl Şamil oğlu.
Məmmədov Anar İlyaz oğlu.
Fətiyev Xanlar Nuru oğlu.
Yıldırım Fatma Vidadi qızı.
Bayramov Kamran Fərhad oğlu.
Qurbanlı Mübariz Qəhrəman oğlu.
Həsənov Nurlan Urfan oğlu.
Hüseynova Sevinc Əmirəhməd qızı.
Nağıyev Arzu Nəsib oğlu.
Səfərov Nizami Abdulla oğlu.
Ağayeva Ülviyyə Cavanşir qızı.
Əmiraslanov Azər Kamal oğlu.
Seyidov Səməd İsmayıl oğlu.
Məhəməliyev Nəsib Məhəmməd oğlu.
Kərimli Azər Şəmşid oğlu.
Əsgərov Asif Yunis oğlu.
Məsimli Əli Əhməd oğlu.
İskəndərov Vüqar Yapon oğlu.
Feyziyev Cavanşir Əyyub oğlu.
Musayev Elşən Məmmədhənifə oğlu.
Qurbanov Eyvaz Daşdəmir oğlu.
Məmmədov Elman Camal oğlu.
Məmmədov Ceyhun Valeh oğlu.
Əliyev Bəxtiyar Həmzə oğlu.
Muradov Rövşən Şahbaz oğlu.

Gəncəliyev Tural Babaşah oğlu.
Qasımlı Mircəlil Xəqani oğlu.
Bülbüloğlu Polad.
İsmayılov İmamverdi İbiş oğlu.

**Məzahir Pənahov**. Hörmətli sədr Sahibə xanım, çox sağ olun ki, bizə belə şərait yaratdınız. İcazə verin, sədarət, Milli Məclis sədri başda olmaqla, bütün kollektivə Mərkəzi Seçki Komissiyası adından öz təbrikimizi bir daha çatdıraq və əmin olduğumuzu bildirək ki, sizlər Azərbaycanın bu güclü əllərdə olan hakimiyyət qollarından biri kimi öz vəzifənizin öhdəsindən artıqlaması ilə gələcəksiniz. Biz hamımız sizinlə fəxr edəcəyik. Çox sağ olun. *(Alqışlar.)*

**Sədrlik edən.** Məzahir müəllim, çox sağ olun. Bəli, biz Sizə uğurlar arzulayırıq, təşəkkürümüzü bildiririk. Əslində, Siz bu gün o yüksək missiyanın axırıncı nöqtəsini qoydunuz. Sağ olun. *(Alqışlar.)*

Hörmətli həmkarlar, indi isə mən xahiş edirəm, gündəliyə münasibət bildirin. Gündəlik hamınıza paylanıb. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.11 dəq.) |
|---|---|
| Lehinə | 118 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 119 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, gündəlik qəbul edildi.

Hörmətli həmkarlar, qeyd edim ki, bu gün biz 17 məsələni müzakirə edəcəyik. Bu məsələlərin hamısı qərar

layihələridir. Onu da qeyd edim ki, ilk 15 məsələ Milli Məclisin komitələrinin üzvlərinin seçilməsi ilə bağlıdır.

Beləliklə, mən gündəliyin 1-ci məsələsinə keçirəm. Bu, Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsi üzvlərinin seçilməsi haqqındadır. Qərar layihəsi sizin hamınıza paylanıb. Ayrı fikir yoxdursa, mən məsələni səsə qoyuram. Səsə qoyaq?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 13.12 dəq.) |
|---|---|
| Lehinə | 119 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 3 |
| İştirak edir | 122 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qərar qəbul edildi. Əli müəllim, Sizi və komitə üzvlərinizin hamısını təbrik edirəm.

Hörmətli həmkarlar, 2-ci məsələyə keçirik. Bu məsələ də Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsi üzvlərinin seçilməsi haqqındadır. Qərar layihəsi sizdə var. Səsə qoyaq?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Məsələni səsə qoyuram, buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 13.12 dəq.) |
|---|---|
| Lehinə | 120 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |

| | |
|---|---|
| İştirak edir | 120 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qərar qəbul edildi. Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin üzvlərini təbrik edirəm.

Növbəti 3-cü məsələ Milli Məclisin İnsan hüquqları komitəsi üzvlərinin seçilməsi haqqındadır. Buyurun, layihə sizdədir. Səsə qoyuruq, buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 13.13 dəq.) |
|---|---|
| Lehinə | 122 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 123 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qərar qəbul edildi. İnsan hüquqları komitəsinin üzvlərini təbrik edirəm.

Növbəti məsələ Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsi üzvlərinin seçilməsi haqqındadır. Buyurun, fikrinizi bildirin.

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Qərar layihəsi sizdə var. Səsə qoyuruq, buyurun, münasibətinizi bildirin.

| **Səsvermənin nəticələri** | (saat 13.13 dəq.) |
|---|---|
| Lehinə | 121 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 122 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qərar qəbul edildi. Komitənin üzvlərini təbrik edirik.

Növbəti 5-ci məsələ Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsi üzvlərinin seçilməsi haqqındadır. Qərar sizə paylanıb. Fikir nədir?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Buyurun, səsə qoyulur, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 13.14 dəq.) |
|---|---|
| Lehinə | 123 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 124 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qərar qəbul edildi. Bu komitənin də üzvlərini təbrik edirik.

Növbəti məsələ Milli Məclisin Aqrar siyasət komitəsi üzvlərinin seçilməsi haqqındadır. Qərar layihəsi sizə paylanıb. Buyurun. Səsə qoyaq?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 13.14 dəq.) |
|---|---|
| Lehinə | 121 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 121 |
| Nəticə: Qəbul edildi | |

Qərar qəbul edildi. Bu komitənin də üzvlərini təbrik edirik.

Növbəti məsələ Milli Məclisin Əmək və sosial siyasət komitəsi üzvlərinin seçilməsi haqqındadır. Buyurun, fikir bildirin. Səsə qoyaq?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Səsə qoyulur, buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 13.15 dəq.) |
|---|---:|
| Lehinə | 123 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 123 |
| Nəticə: Qəbul edildi | |

Qərar qəbul edildi. Komitənin üzvlərini təbrik edirik.

Gündəliyin 8-ci məsələsi Milli Məclisin Səhiyyə komitəsi üzvlərinin seçilməsi haqqındadır. Səsə qoyaq?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.15 dəq.) |
|---|---:|
| Lehinə | 122 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 123 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qərar qəbul edildi. Əhliman müəllim, Sizi və komitənin üzvlərini təbrik edirik.

9-cu məsələ Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsi üzvlərinin seçilməsi haqqındadır. Səsə qoyaq?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 13.16 dəq.) |
|---|---|
| Lehinə | 121 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs verмədi | 1 |
| İştirak edir | 123 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qərar qəbul edildi. Komitənin üzvlərini təbrik edirik.

Növbəti məsələ Milli Məclisin Gənclər və idman komitəsi üzvlərinin seçilməsi haqqındadır. Qərar layihəsi sizdə var. Fikir nədir? Səsə qoyaq?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 13.17 dəq.) |
|---|---|
| Lehinə | 124 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 124 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qərar qəbul edildi. Komitənin üzvlərini təbrik edirik.

Növbəti məsələ Milli Məclisin Regional məsələlər

komitəsi üzvlərinin seçilməsi haqqındadır. Buyurun, fikir bildirin, qərar layihəsi sizdə var.

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Səsə qoyuruq. Münasibət bildirməyinizi xahiş edirəm. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.17 dəq.) |
|---|---|
| Lehinə | 123 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 123 |
| Nəticə: Qəbul edildi | |

Qərar qəbul edildi. Siyavuş müəllim, Sizi və komitənin üzvlərini təbrik edirik.

Növbəti məsələ Milli Məclisin Elm və təhsil komitəsi üzvlərinin seçilməsi haqqındadır. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 13.18 dəq.) |
|---|---|
| Lehinə | 121 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 122 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qərar qəbul edildi. Komitə üzvlərinin hamısını təbrik edirik.

14-cü məsələ Milli Məclisin Mədəniyyət komitəsi üzvlərinin seçilməsi haqqındadır. Qərar layihəsi sizə paylanıb. Buyurun. Səsə qoyaq?

**Yerdən.** *(Eşidilmir.)*
**Sədrlik edən.** Münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 13.18 dəq.) |
|---|---|
| Lehinə | 122 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 122 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qərar qəbul edildi. Polad müəllim, Sizi və komitənin üzvlərini təbrik edirik.

Növbəti 15-ci məsələ Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsi üzvlərinin seçilməsi haqqındadır. Buyurun, fikrinizi bildirin. Səsə qoyaq?

**Yerdən.** *(Eşidilmir.)*
**Sədrlik edən.** Buyurun, səsə qoyuruq.

| **Səsvermənin nəticələri** | (saat 13.19 dəq.) |
|---|---|
| Lehinə | 121 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 121 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi. Səməd müəllim, Sizi və komitənin üzvlərini təbrik edirik.

Hörmətli həmkarlar, Milli Məclisin İctimai birliklər komitəsinin üzvlərini seçməliyik. Qərar layihəsi sizə paylanıb. Buyurun, münasibət bildirin.

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.19 dəq.) |
| Lehinə | 119 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 119 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qərar qəbul edildi. Komitənin üzvlərini təbrik edirik.

Beləliklə, hörmətli deputatlar, Milli Məclisin bütün orqanları təşkil olundu və komitələr tam gücü ilə fəaliyyətə başlaya bilər. Sizi təbrik edirik.

Hörmətli həmkarlar, qeyd edim ki, parlamentin qanunvericilik qovluğunda möhtərəm cənab Prezidentin qanunvericilik təşəbbüsü qaydasında bizə göndərdiyi bir sıra layihələr var. Ona görə də xahiş edirəm, komitələr layihələri müzakirə edib Milli Məclisə təqdim etsinlər. Eyni zamanda, komitələrdən xahiş budur ki, payız sessiyası üçün özlərinin iş planlarını tərtib etsinlər.

Hörmətli həmkarlar, biz işimizə davam edirik. Bildiyiniz kimi, parlamentin fəaliyyəti qanunvericilik işləri planı əsasında qurulur və həmin plan hər növbəti sessiyanın birinci iclasında qəbul olunur. Bayaq mən çıxışımda da bu məsələyə toxunmuşdum. İndi isə biz növbəti məsələyə keçirik. Bu da 16-cı məsələdir. Bu məsələ məhz payız sessiyasının qanunvericilik işləri planı haqqındadır. Plan sizə paylanıb. Onu da deyim ki, qanunvericilik işləri planı 7 bənddən ibarətdir. Məsələ ilə bağlı artıq yazılanlar, çıxış etmək istəyənlər var. Zahid Oruc. Buyurun.

**Zahid Oruc.** Təşəkkür edirəm. Hörmətli sədr, ilk növbədə Sizi, sədarəti və bütün parlament üzvlərini yeddinci

çağırışın birinci iclasında salamlayırıq, uğurlar diləyirik. Qısa olaraq məsələ ilə bağlı fikirlərimi bölüşmək istəyirəm.

Zəfər salnaməsindən sonra keçirilən Prezident və parlament seçkiləri bütün namizədlərin və milyonlarca seçicinin son bir əsrdə, həm də 30 ildə məcburi köçkünlükdən və işğaldan, Dağlıq Qarabağdan deyil, Böyük Qayıdış və yeni siyasi hədəflərdən danışdığı ilk tarixi hadisədir. Prezident İlham Əliyevin andiçmə və Milli Məclisin açılış mərasimlərində iştirakı və çıxışları mühüm dövlətçilik ənənəsi olmaqla hakimiyyətin vahidliyini göstərir, Ulu Öndərin qanunvericilik orqanından başlayan siyasi kursunu davam etdirir. Gəlin, birlikdə xatırlayaq. 1990-cı illərdə məhz Ali Sovetdən Milli Məclisə çevrilən bu parlament dövlətçiliyimiz üçün əsl minaya, təhlükəyə çevrilmişdi. Bütün çevriliş cəhdləri, hərbi silahlı toqquşmalar və etnik separatizm, hakimiyyət uğrunda qanlı mübarizələrin baş ünvanı məhz bu bina idi. Çevrilişin ləkəsi hələ alkoponların altından silinməyib. Ulu Öndər Heydər Əliyev ölkədə sabitliyi və əmin-amanlığı birinci olaraq Milli Məclisdən başladı.

Azərbaycan tarixində Xankəndidə hərbi parad keçirib, gəlib Məclisin tribunasından qələbə nitqi söyləyən tək lider İlham Əliyevdir. Bakı və Xankəndi indiki qədər vahid siyasətin, idarəçiliyin, quruculuğun və bir millətin – azərbaycanlıların əlində olmayıb. 1990-cı illər parlamentində suverenliyə səs verənlər, ölkəyə prezident seçilən birinci şəxs, onun komandası nəinki Xankəndiyə, bütün Qarabağa daxil ola bilmirdi. Ona görə də qələbədən sonra hər bir azərbaycanlı kimi millət vəkilləri də bütövlüyü təmsil edirlər. Daha işğal olunan rayonların köçkün təmsilçiləri deyildirlər.

Seçkilər beynəlxalq təhlükəsizlik böhranının və üçüncü

dünya müharibəsinin gündəmə gəldiyi şəraitdə keçirilirdi. Ona görə də baş verən hər hansı qanun pozuntusu Brüsseldən ölkəmizi idarə etmək istəyən, bizə xaricdən dövlət başçısı, hökumət və parlamenti sırımağa çalışanların məqsədləri ilə müqayisədə statistik hadisədir. Şuşada qoyulan sandığa müqəddəs deyib qələbəmizi hakimiyyətin əleyhinə çevirməyə çalışanlar unudurlar ki, mədəniyyət paytaxtımızı məhz demokratiya şüarları ilə itirmişdik. İndi isə dövlət ordu və millətin gücü ilə məhz silahla azad etdi. Tanksız, topsuz azadlıq və müstəqillik məhvə məhkumdur. Bizdən ədalətli seçki tələb edənlərə cavabı bu yüksək kürsüdən ölkə rəhbəri özü verdi.

Sitat: “Suverenliyimizin bərpa edilməsində kim bizi təbrik edib, dostumuzdur, qarşı çıxıb, müttəfiqimiz ola bilməz”. Burada təmsilçilik qazanan müxalif qüvvələr də, bitərəflər də, hakimiyyət partiyasının nümayəndələri də İlham Əliyevin qələbəsinə görə uğur qazanıblar. Lakin yeni parlament seçkilərində iştirak etməyənlərin, yaxud əleyhinə səs verənlərin də təmsilçisi olacaqlar. Əlbəttə, seçici fəallığının aşağı olması, rəqabət mühiti ətrafında hakimiyyət institutları dərin təhlillər aparırlar. Lakin məntəqələrə gəlməyənlərə passiv çoxluq deyib, onlardan kritik kütlə və tərəfdar düzəldəcəklərini düşünənlər fərqindədirlər ki, ən böyük xalq səsverməsi 44 günlük müharibə idi. Vahidləşən ölkəmizi seçki uğrunda parçalanan, qütbləşən xalq obrazı ilə əvəz etmək məhvə məhkumdur.

Hörmətli sədr, qanunvericilik işləri planında ilk növbədə dövlət siyasətində birinci yerdə dayanan Böyük Qayıdış ilə bağlı Milli Məclisin üzərinə düşən vəzifələrdən danışmaq istəyərdim. 2022-ci il noyabrın 16-da qəbul olunan “Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqra-

mı"nda ərazilərin bərpası, milli iqtisadiyyata inteqrasiyası və davamlı qayıdışın təmin edilməsi ilə bağlı çox vacib vəzifələr müəyyənləşib. Lakin ötən günlərdə bir şəxsin öz evini kirayə verməsi ətrafında müxtəlif informasiya platformalarında məcburi köçkünlər əleyhinə kampaniya başladı. Daha sonra isə son 4 ildə həyata keçirilən Böyük Qayıdış – onu məmurların biznes məkanı və sair kimi çirkli adlarla qiymətləndirən daxili və xarici düşmənlərin qələbəmiz əleyhinə beynəlxalq aksiyasına çevrildi.

Bildiyiniz kimi, məcburi köçkünlüyə və qaçqınlığa dair ötən onillər ərzində çoxlu qanunvericilik aktları yaradılmışdır və biz o humanitar fəlakəti məhz bu hüquq çərçivələri ilə aradan qaldıra bildik. Lakin qayıdışın hüquqi əsaslarını formalaşdırmaq da, onu sistemli təşkil etmək də, yeni torpaq islahatları da, məşğulluq da, sahibkarlıq fəaliyyəti də, dediyimiz kimi, yeni qanunvericilik aktlarına ehtiyac duyur. Təmsil etdiyimiz komitə müvafiq dövlət qurumu ilə birlikdə belə bir sənədi iki ilə yaxındır ki, ali rəhbərliyə təqdim edib. Layihədə 3 əsas məsələ – qayıdan şəxslərin hüquqi vəziyyəti, onlara iqtisadi və sosial güzəştlərin verilməsi, inteqrasiyanın təmin edilməsi və digər idarəetmə əsaslarının yaradılması kimi məsələlər ehtiva olunubdur. Ona görə də məhz qanunvericilik işləri planına qayıdış haqqında hüquqi sənədlərin, – əslində, bu, bir müqəddəs vəzifədir və parlamentimizin taleyinə düşübdür, – qəbul olunmasını təklif edirik.

İkinci məsələ Qarabağın azadlığından sonrakı vəziyyətlə, obrazlı desək, qanunlarımızın işğaldan, o işğalın mirasından azad olunması ilə bağlıdır. Qanunlarımız da azad olmalıdır. Ölkəmizin tərəfdar çıxdığı bütün beynəlxalq normalara qoşularkən biz qeyd-şərtlər etmişdik. O konvensiyalarda etdiyimiz şərtlər, əslində, qanunvericilik

sistemimiz üçün də bir yaraya, ağrıya çevrilmişdir. İndiki dövrdə müxtəlif dövlət qurumlarının sənədlərində, hətta nizamnamələrində Dağlıq Qarabağ, işğal edilmiş ərazilər və sair ifadələr hələ də yer alır. Düşünürəm ki, bu məsələlər də qarşıdakı dövrdə parlamentin diqqət mərkəzində olacaqdır.

Bilirsiniz ki, Gürcüstan oktyabr ayında növbəti seçkilər qarşısında sanki 2003-cü ildəki kimi beynəlxalq maraqların, geosiyasi mənafelərin toqquşma meydanına çevrilib. Daha çox iki məsələyə görə. Qərbin hökmünə artıq tabe olmaq istəmirlər, "Xarici agentlər haqqında" Qanun qəbul ediblər və ailə dəyərlərini 18 aktla qorumaq istəyirlər. Möhtərəm cənab Prezident bu parlamentin yüksək tribunasından ailə, məktəb və cəmiyyət üçlüyünü qarşıdakı dövrdə dövlətin ən mühüm vəzifələri sırasına aid etdi. Ona görə Məclisin bu istiqamətdə də məsələləri diqqətdə saxlayacağına inanıram. Təşəkkür edirəm, sağ olun.

**Sədrlik edən.** Sağ olun. Təklif var ki, 5 dəqiqəyə keçək. Reqlament. Hamı razıdır?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Siyavuş Novruzov. Buyurun, Siyavuş müəllim.

**Siyavuş Novruzov.** Təşəkkür edirəm, hörmətli xanım sədr. Mən ilk növbədə Sizi yenidən sədr seçilməyiniz münasibəti ilə, eyni zamanda, sədarəti, həmkarlarımın hər birini deputat seçilmələri münasibəti ilə təbrik edirəm.

Hörmətli sədr, qeyd etmək istərdim ki, altıncı çağırış Milli Məclis Sizin rəhbərliyinizlə, doğrudan da, çox böyük işlər gördü, həm müharibə dövründə, həm də koronavirus zamanı bütün yeni texnologiyalar tətbiq olundu və dövlətin parlament qarşısında qoyduğu vəzifələr yüksək səviyyədə, layiqincə yerinə yetirildi. Cənab Prezident də

dəfələrcə çıxışlarında bu məsələyə öz qiymətini verib. Müzakirə etdiyimiz qanunvericilik layihəsi ilə əlaqədar deyim ki, cənab Prezident burada çıxışında qarşımızda duran əsas məsələləri və hansı sahələrlə bağlı qanunların qəbul olunmasını qeyd etdi. Tezis şəklində desəm, təhlükəsizlik, müdafiə, ordunun gücləndirilməsi, təchizatı, işğaldan azad edilən ərazilərin bərpası və sosial təminat məsələləri, əsasən də, minimum əmək haqqı və pensiyaların artması, həmişə olduğu kimi, yenə də dövlətin diqqət mərkəzindədir. Hesab edirəm ki, qanunvericilikdə bu bizim əsas baş planımız kimi nəzərdə tutulmalıdır. Biz bu sahəyə aid qanunların qəbuluna nail olmalıyıq.

Bundan əlavə, iki seçki keçirilibdir. Bilirsiniz ki, üçüncü də yerli özünüidarəetmə seçkisi olacaq. Bununla əlaqədar Seçki Məcəlləsində müvafiq dəyişikliklərin edilməsinə ehtiyac var. Birinci növbədə hesab edirik ki, bələdiyyə seçkiləri digər seçkilərdən fərqlənməlidir. Bələdiyyə üzvü ilə prezidentliyə namizəd, yaxud da parlament üzvlüyünə namizəd üçün eyni sənədlərin toplanması düzgün deyil. Yəni adi bir kənddən bələdiyyəyə seçilən vətəndaşla prezidentliyə namizəd dairə seçki komissiyasına eyni sənədləri təqdim etməlidir. Bu baxımdan da bunlar fərqlənməlidir və Seçki Məcəlləsində öz yerini tapmalıdır. Bununla bərabər, həm parlament, həm də ondan öncə Prezident seçkiləri ilə bağlı Seçki Məcəlləsində bir çox maddələrdə boşluqlar var. Bu bizim komitənin səlahiyyətinə aid deyil. Ona görə də biz onu yazılı şəkildə də təqdim edə bilərik ki, orada dəyişikliklər aparılsın.

Üçüncü məsələ. Bu gün vətəndaşları çox ciddi şəkildə narahat edən onların kartlarından pulların çıxarılmasıdır. Bu mövzu ilə bağlı məsələni Cinayət Məcəlləsində ciddi şəkildə gücləndirməliyik. Vətəndaşın pensiyasını, əmək

haqqını, vəsaitini ayrı-ayrı informasiya texnologiyalarından istifadə edərək mənimsəmənin, bundan istifadə etmənin qarşısı qəti şəkildə alınmalıdır. Bu, vətəndaşlarda ciddi şəkildə narazılıq yaradır. Onlar banka etibar edirlər, amma nəticədə kartlarında heç bir vəsaitin olmaması ilə rastlaşırlar.

Mən burada müəllimlərin hüquqlarının müdafiəsi ilə əlaqədar bir məsələyə də toxunmaq istərdim. Hərə bir telefon götürüb müəllimi çəkir. Bizim zamanımızda hamı müəllimə hörmətlə yanaşıbdır. Müəllim hamıya dərs verəndir, öyrədəndir. Ola bilər ki, aralarında bir-iki nəfər pisi olsun, amma müəllim bir uşağa bir söz deyəndə onun üstünə valideynlərin hücum çəkmələri, onu işdən çıxartmaq, ona töhmət vermək və sair artıq təhsilimizə böyük təsir göstərir. İndi yeni Elm və təhsil komitəsinin sədrindən xahiş edək ki, bu sahədə də hər hansı bir müddəaya ehtiyac var, onların da hüquqları qorunsun. Onlar xalqın övladlarına dərs verir, öyrədir, istiqamətləndirirlər. İndi, ola bilər, müəllim hansı isə ifadəni düzgün işlətmir. Buna görə onu ittiham etmək olmaz. Hesab edirəm ki, bunlar qanunvericilikdə öz əksini tapsa, daha yaxşı olar. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Jalə Əliyeva. Buyurun.

**Jalə Əliyeva**. Təşəkkür edirəm, hörmətli xanım sədr. Hörmətli millət vəkilləri, öncəliklə, mən də öz növbəmdə yeddinci çağırış parlament seçkilərində deputat mandatı qazanan bütün həmkarlarımı, başda, xanım sədr Siz olmaqla təbrik edir, hər birinə fəaliyyətlərində uğurlar arzu edirəm. Yeddinci çağırış Milli Məclisi digər çağırışlardan fərqləndirən ən əhəmiyyətli cəhət bu parlament seçkilərinin Azərbaycanın bütün suveren ərazisində keçirilməsidir. Azərbaycanın 33 illik müstəqillik tarixində bu, bir ilkdir. Bu ilkə imza atan bütövlüyümüzə, su-

verenliyimizə gedən yolun yenilməz bayraqdarı olan xilaskar Prezident, müzəffər Ali Baş Komandan cənab İlham Əliyevə sonsuz minnətdarıq. O, bəlkə də mümkünsüz kimi görünəni mümkün etdi. Tarixən bizim olanı bizə qaytartdırdı. Bizləri Qarabağlı Azərbaycan etdi. Cənab Prezidentin dövlət, xalq, ölkə naminə irəli sürdüyü bütün çağırışlara layiqincə cavab vermək, ölkəmizdə gedən böyük quruculuq işlərində öz səylərini əsirgəməmək, xalqı ilə dövlətinin arasında möhkəm körpü rolunu oynamaqla Prezidentin sadiq əsgəri olmağı bacarmaq hər birimizin ümdə vəzifəsidir. Əlbəttə ki, Prezident İlham Əliyev tərəfindən həyata keçirilən uğurlu daxili və xarici siyasətin qanunvericilik bazasının möhkəmləndirilməsi üçün bu günə qədər olduğu kimi bundan sonra da səylərimizi əsirgəməməliyik.

Xanım sədr, biz az əvvəl elə Sizin çox doğru olaraq söylədiyiniz kimi, tamamilə yeni mərhələyə qədəm qoymuşuq və bu yeni mərhələdə bizim parlamentarilər olaraq birgə, həmrəy fəaliyyətimizin ən mürəkkəb problemlərin həllinə yol açacağını da unutmamalıyıq. Bu yolda bir daha hər birinizə uğurlar arzulayıram. Bizə etimad göstərən, potensialımıza inanan, bizə səs verən, bizi seçən hər bir insana təşəkkür etmək istəyirəm.

Müzakirəmizə təqdim olunan Milli Məclisin 2024-cü il payız sessiyasının qanunvericilik işləri planına gəlincə isə, bu layihəyə səs verəcəyəm və bütün həmkarlarımızı layihəyə səs verməyə dəvət edirəm. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Aydın Mirzəzadə. Buyurun.

**Aydın Mirzəzadə**. Təşəkkür edirəm, xanım sədr. Mən də digər deputat həmkarlarım kimi yeni seçilən deputatları da seçilmələri münasibəti ilə ürəkdən təbrik edirəm. 1 sentyabr növbədənkənar parlament seçkiləri ilə yanaşı,

həm də dövlətçilik imtahanı idi. Azərbaycanın demokratiyanın tələblərinə nə cür cavab verməsinin bir göstəricisi idi. Səmimiyyətlə deyə bilərik ki, seçkilər demokratik, rəqabətli, şəffaf keçdi. Hər dairədən daha çox seçici səsi toplayan insanlar bu gün öz bölgələrini parlamentdə təmsil edə bilirlər.

Sahibə xanım, Sizi yenidən Milli Məclisin sədri seçilməyiniz münasibəti ilə təbrik edirəm. Siz ötən çağırışda parlamentə uğurla rəhbərlik etdiniz, parlamentin fəaliyyətinə yeniliklər gətirdiniz, parlamentin dövlətçiliyin möhkəmlənməsində rolunu daha da möhkəmləndirdiniz. Ona görə də tamamilə təbiidir, gözlənilləndir ki, yenidən Yeni Azərbaycan Partiyası etimad göstərdi. Sizə fəaliyyətinizdə uğurlar arzulayıram. Mən sədarətə seçilən yoldaşları da ürəkdən təbrik edirəm.

Parlament tariximizdə ilk dəfədir ki, parlament rəhbərliyində oturan yoldaşların hamısı elmlər doktoru, professordur. İkisi isə hətta akademikdir. Hesab edirəm ki, bunun özü Azərbaycan parlamentinin çox uğurlu və yüksək keyfiyyət göstəricilərindən biri hesab edilə bilər. Mən parlamentə yeni seçilən deputatları ürəkdən təbrik edirəm. Onların hər biri seçkilərə qədər cəmiyyətin bu və digər sahələrində uğurlu fəaliyyət göstərmişdir. Parlamentdə vaxtı ilə uğurla fəaliyyət göstərib, yenidən parlamentə qayıdan dostlarımızı təbrik edirəm. Onlara "Xoş gəlmisiniz!" deyirəm və inanıram ki, onların fəaliyyəti parlamentimizin işini daha da gücləndirməyə kömək edəcəkdir.

Sentyabrın 1-də təkcə parlament seçkiləri keçirilmədi, eyni zamanda, Azərbaycanın dəyərli bölgələrindən biri olan Naxçıvan Muxtar Respublikasında da Ali Məclisə seçkilər keçirildi. Səhv etmirəmsə, bu gün onlarda da

birinci sessiyadır. Bu münasibətlə mən onları təbrik edirəm. Xanım sədr, belə bir təklif vermək istəyirəm. Milli Məclislə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin vaxtaşırı birgə iclasları keçirilsin. Eyni zamanda, Naxçıvan Ali Məclisinin iclasında mütəmadi olaraq Milli Məclisin nümayəndələrinin qonaq qismində iştirak etməsini və beləcə, əlaqələrin möhkəmləndirilməsini təklif etmək istəyərdim.

Sessiyanın işlər planına bir təklifim olardı. Təklifim Seçki Məcəlləsində növbədənkənar seçkilərin təcrübəsinə əsasən müəyyən dəyişikliklərin edilməsidir. Digər təklifim isə, deputatlığa namizədin seçki günü məntəqələrə daxil olmasını qadağan etməkdir. Namizədlərin əksəriyyəti həmin gün etikanı gözləyərək məntəqələrə daxil olmurdu. Amma bir çox məntəqələrdə uduzacağını əvvəldən bilən namizədlər məntəqələrə gəlir, xuliqanlıq edir, rəqib tərəfin nümayəndələrinə qarşı zorakılıq tətbiq edirdilər. Kameralara düşməsə də, xəbərlər gəlirdi ki, onlar, hətta məntəqə komissiyasının üzvlərini təhqir edir, onları təbdən çıxarmağa çalışırdılar. Belə hallar yolverilməzdir. Toxunulmaz şəxsdir deyə, onları məsuliyyətə cəlb etmək olmurdu. Digər tərəfdən isə, siyasi etikanı gözləmək artıq hər bir kəsin özündən asılı olan məsələdir. Ona görə də həm beynəlxalq təcrübəni, həm də Azərbaycan təcrübəsini nəzərə alaraq mən gələcək Seçki Məcəlləsində dəyişiklik edilərsə, oraya deputatlığa namizədin seçki günü məntəqələrə daxil olmasını qadağan edən bəndin salınmasını istəyərdim. Onsuz da, orada bütün namizədlərin müşahidəçiləri var, kameralar var. Mətbuat da izləyir. Seçkinin gedişatına dair kifayət qədər məlumat əldə etmək mümkündür.

İşlər planını bəyənirəm, səs verəcəyəm.

**Sədrlik edən.** Çox sağ olun, Aydın müəllim. Növbəti çıxış. Əli Hüseynli. Buyurun.

**Əli Hüseynli.** Çox sağ olun, hörmətli Sahibə xanım. İlk növbədə, hörmətli sədr, Sizi, bütövlükdə, sədarəti və həmkarlarımızı səmimi qəlbdən təbrik edirəm. Fürsətdən istifadə edib Yeni Azərbaycan Partiyasının sədri möhtərəm cənab İlham Əliyevə parlament seçkilərində göstərdiyi dəstəyə və etimadına görə bir daha təşəkkürümü bildirirəm.

Hörmətli sədr, Siz və həmkarlarım builki parlament seçkilərinin, Prezident seçkilərinin hansı şəraitdə keçdiyini xüsusi vurğuladınız. Həqiqətən, bu seçkiləri səciyyələndirən ən mühüm amil onların suveren Azərbaycanda keçirilməsi idi. 1991-ci ildə Azərbaycan müstəqilliyini SSRİ-nin dağılması nəticəsində əldə etməsinə baxmayaraq, təəssüf ki, seçkiləri suveren vəziyyətdə keçirmirdi. Bir il bundan əvvəl Azərbaycan Qarabağda öz suverenliyini bərpa etdikdən sonra separatçı ermənilərlə yanaşı, onlarla eyni cəbhədə olmuş Azərbaycanın radikal müxalifəti də ölkədən təxliyə olundu. Onların tör-töküntüləri yeddinci çağırış parlament seçkiləri vaxtı da guya seçkiləri boykot etmək niyyətində idilər. Amma Azərbaycan xalqı özü onları boykot etdi. Azərbaycan xalqı Prezident İlham Əliyevin siyasətini dəstəkləyən namizədlərə səs verdi və bugünkü parlament azad, demokratik seçkilər nəticəsində formalaşdı.

Hörmətli sədr, iş planında Hüquq siyasəti və dövlət quruculuğu komitəsinə də aid çox vacib məsələlər var. Beynəlxalq müqavilələr haqqında, diplomatik xidmət haqqında qanun layihələri... Bütün bu qanun layihələri, həmçinin iş planında göstərilən digər sahələrə aid qanun layihələri cənab Prezidentin bu günlərdə verdiyi tövsiyələrə tam uyğundur. Hüquq siyasəti və dövlət quruculuğu

komitəsi olaraq əmin etmək istəyirəm ki, bundan sonra da komitəmiz ölkədə həyata keçirilən məhkəmə-hüquq islahatlarına qanunvericilik çərçivəsində öz dəstəyini verəcək.

Sizə və bütün həmkarlarıma bundan sonra Ulu Öndər Heydər Əliyevin siyasətinə, dövlətçiliyə və xalqa xidmətdə uğurlar arzulayıram. Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Əli müəllim. Növbəti çıxış. Fazil Mustafa. Buyurun.

**Fazil Mustafa.** Hörmətli xanım sədr, hörmətli millət vəkilləri. Hörmətli xanım sədr, mən də Siz başda olmaqla yeni seçilən rəyasət heyətini, bütün millət vəkillərini yeni sessiyanın, parlamentin yeni dönəminin başlanması münasibəti ilə təbrik edirəm. Ümid edirəm ki, bu parlament keyfiyyətcə ötən çağırışda böyük işlər görmüş parlamentin yaratdığı zəmin əsasında daha da xeyli faydalı işlər görəcəkdir və qanunvericilik sahəsində Azərbaycan cəmiyyətinin tələblərini lazımi səviyyədə qarşılayacaqdır.

Bu gün təqdim olunan qanunvericilik işlər planı ilə bağlı mən də bir neçə məsələyə toxunmaq istəyirəm. Birinci növbədə qeyd etmək istəyirəm ki, bizim əvvəlki praktikada daha çox bir neçə komitənin – Hüquq siyasəti və dövlət quruculuğu, Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə, İqtisadi siyasət, sənaye və sahibkarlıq komitələrinin qanunvericilik sistemimizin fəaliyyətində fəal iştirakı təbii olaraq önə çıxır. Mən istərdim ki, biz, komitəyə, əsasən, Azərbaycan Prezidentindən gələn qanun layihələrini digər komitələrə də bir az uyğunlaşdıraraq onların əsas komitə olmasa belə, rəy verən komitə kimi iştirakını genişləndirək. Bu praktikanı daha çox tətbiq edək. Çünki qanunvericilik dövrünün sonunda elə komitələr var ki, onların yalnız iki-üç qanunvericilik sənədinə rəy bildirdiyini müşahidə edirik. Bu sayın art-

ması komitələrin daha da çox fəaliyyət göstərməsinə gətirib çıxara biləcəkdir.

İkinci. Ötən çağırışda Sizin çox böyük dəstəyinizlə keçirilən ictimai dinləmələrin sayının artması olduqca vacibdir. Biz daha intensiv, daha geniş, çoxşaxəli dinləmələrin praktikasını genişləndirməliyik. Bu, qanunvericilikdə cəmiyyətdən gələn çağırışları daha tez eşitmək, onları daha çox diqqətə almaq imkanı yaradacaqdır. Konkret layihələrlə bağlı mən ilk olaraq istərdim ki, dəyişikliklər diqqətə alınsın.

İnternet üzərindən gələn təhdidlərlə bağlı. Bu gün bizdə müvəqqəti komissiya yaradılacaq. Mən bunu təqdir edirəm, çox vacibdir. Hibrid təhlükələr Azərbaycan üçün indiki dövrdə ən aktual məsələyə çevrilib. İndi artıq kimsə silahla, topla, tüfənglə addım atmır, internet – “YouTube”, “Tik-Tok” və başqa vasitələr üzərindən məsuliyyətsiz söyüşlə, məsuliyyətsiz çağırışla cəmiyyətdə özlərinə uyğun ünsürləri səfərbər edə bilirlər. Bu da dövlət üçün, indi ciddi görünməsə də, amma genişləndikcə ciddi təhlükələr yarada bilər. Ona görə də bu istiqamətdə qanunvericiliyi daha da təkmilləşdirmək barədə düşünməliyik və yeni qanunvericilik təşəbbüsləri ortaya qoyulmalıdır.

Üçüncü. Bu il bələdiyyə seçkilərinin keçirilməsi nəzərdə tutulur. Yerli özünüidarə ilə bağlı uyğunsuzluqların ortadan qaldırılması, yəni icra hakimiyyətləri, bələdiyyələr bunlar arasında səlahiyyət bölgüsü, yerlərdə hədsiz mərkəzləşmə nəticəsində bir sıra problemlərin həll olunmamasının səbəblərini araşdırıb qanunvericilikdə bu məsələyə də ciddi şəkildə toxunmalıyıq.

Burada “Xarici agentlər haqqında” Qanun qeyd olundu. Bu bizim üçün də aktualdır. Diqqət edirsinizsə, Azərbaycanda istər dini sferada, istərsə də xaricdə məskunlaşan,

özünü mühacirətdə hesab edən, amma həmin dövlətlərin xüsusi xidmət orqanlarının nəzarətində olan şəxslər tərəfindən bir söyüş kampaniyası, təhqir, təhdid, hətta ölkə Prezidentindən tutmuş ölkənin bütün rəsmi şəxslərinə qarşı olan hücumların hamısı məhz xarici agentlər silsiləsinə aid olan məsələdir. Biz bu məsələni də aktuallaşdırmaq barədə düşünməliyik. Yəni Gürcüstanda qəbul olunduğuna görə deyil, bunu məhz bizim də qarşılaşdığımız bir problem kimi tənzimləməyə çalışmalıyıq.

Ümumilikdə, mən qanunvericilik işləri planına səs verəcəyəm. Hesab edirəm ki, burada nəzərdə tutulan məsələlər, həqiqətən də, parlamentin daha aktiv fəaliyyət göstərməsinə gətirib çıxaracaqdır. Təşəkkür edirəm.

**Sədrlik edən.** Fazil müəllim, çox sağ olun. Siz dinləmələr məsələsini vurğuladınız. Tamamilə düzdür, biz keçən çağırışda kifayət qədər dinləmə keçirdik. Düşünürəm ki, bu təcrübəni daha da genişləndirməliyik. Mən həmişə vurğulamışam və yenə də vurğulayıram ki, dinləmələr dinləmə xatirinə olmamalıdır. Həmin dinləmələrin obyekti bütün cəmiyyətə, qanunvericiliyin, qanunların inkişafına kömək edən məsələlər olmalıdır. Ona görə, hörmətli komitə sədrləri, komitə üzvləri, hörmətli həmkarlar, bu məsələnin üzərində də fikirləşin. Düşünürəm ki, komitələr iş planını tutanda bu məsələlər də o siyahıya daxil ola bilər. Sağ olun.

Hikmət Məmmədov. Buyurun.

**Hikmət Məmmədov.** Çox sağ olun. Hörmətli xanım sədr, hər şeydən öncə yeddinci çağırış Azərbaycan Respublikasının Milli Məclisinə sədr seçilməyiniz münasibəti ilə Sizi təbrik edirəm. Sədarəti, yəni Azərbaycan Respublikası Milli Məclisinin sədr müavinlərini, eyni zamanda, hər bir millət vəkilini təbrik edirəm.

Azərbaycan Prezidenti bir neçə gün öncə bu mötəbər tribunadan çıxış edən zaman dedi ki, Milli Məclis ölkəmizin ümumi inkişafına öz töhfəsini vermişdir. Mən düşünürəm ki, bu Sizin rəhbərliyiniz altında fəaliyyət göstərən altıncı çağırış Azərbaycan Respublikası Milli Məclisinin fəaliyyətinə verilən yüksək qiymət idi. Eyni zamanda, yeddinci çağırış fəaliyyətimizdə hər birimiz üçün xüsusi məsuliyyət  yaradır.

Hörmətli xanım sədr, 2024-cü il milli dövlətçilik və milli demokratiyamızın tarixində mühüm iki hadisə ilə yadda qaldı. Bunlardan biri bu ilin fevral ayında keçirilən Prezident seçkiləri, ikincisi isə bu ilin sentyabr ayının 1-də keçirilən parlament seçkiləridir. Əgər demokratiya insan hüquqlarıdırsa, azadlıqdırsa, mənə elə gəlir ki, 30 illik müstəqillik tariximizdə biz ilk dəfə demokratiyanın təntənəsini tam mənada yaşadıq. Çünki ilk dəfə özlərinin ən böyük demokratik haqlarından məhrum edilmiş, yurd yerləri işğal altında qalmış bu ərazilərdə vətəndaşlarımız öz hüquqlarını bərpa edərək doğulduqları torpaqlarda səsvermə hüquqlarından istifadə etdilər. Beləliklə, müzəffər Ali Baş Komandanımızın, ordumuzun sayəsində milli demokratiyamızın dəyərləri, komponentləri tamamlanmış oldu. Mən düşünürəm ki, ən böyük demokratiya budur.

İkincisi. Xanım sədr, mən qanunvericilik işləri planı ilə tanış oldum. Azərbaycan Prezidenti bu tribunada Milli Məclisin açılış nitqində iki mühüm məsələyə toxundu. Bunlardan biri bizim təhlükəsizlik məsələmiz idi. İkincisi, Azərbaycanda  ictimai rəy üzərində hakim olmağa çalışan mərkəzlərin olmasıdır. Mənə elə gəlir ki, doğrudan da, bu gün qloballaşan dünyada hər bir cəmiyyətin ictimai rəyinin yönləndirilməsi, əslində, həmin cəmiyyətdə paralel hakimiyyət qurmaq deməkdir. Çünki kütləvi ictimai şüur

nəticə etibarı ilə cəmiyyətin fəaliyyətini, fəaliyyət istiqamətlərini, onun dövlətinə, hüquqi dəyərlərinə mənsubiyyəti təyin edir. Yəni bu qədər həssas bir mövzudur. Sizin bundan sonra təqdim edəcəyiniz məsələ tamamilə doğru bir məsələdir. Təhdidlə bağlı məsələlərlə əlaqədar xüsusi komissiya yaradılsın. Mənə elə gəlir ki, prosesin gedişində komissiyanın gəldiyi nəticəyə uyğun olaraq, biz bu mövzu ilə əlaqədar qanunvericiliyimizin təkmilləşdirilməsi ilə bağlı müəyyən təşəbbüslər irəli sürə bilərik.

Bu gün mühüm bir hadisə baş verdi. Hörmətli xanım sədr, mən yenə Azərbaycan Prezidentinin nitqindən sitat gətirəcəyəm. Dövlət başçısı buradakı çıxışında milli ruh məsələsinə toxundu və Azərbaycanda tərbiyənin 3 mənbəyini göstərdi. Dedi ki, birinci tərbiyə mənbəyi ailədir, ikinci məktəbdir, üçüncü isə cəmiyyətdir, yəni sosial mühitdir. Doğrudan da, sosiologiya elmi şəxsiyyətin formalaşmasını eynən cənab Prezidentin dediyi ardıcıllıqla təyin edir, müəyyənləşdirir. Burada, heç şübhəsiz ki, Azərbaycan Prezidentinin dediyi o dəyərlər, sosial varlıq önə çıxır. Sosial varlıq olaraq hər bir azərbaycanlının sosial şüurunda və kimliyində bir qədər Nəsimi, bir qədər Nizami, bir qədər Füzuli var. Musiqi, estetik zövqümüzdə bir qədər Üzeyir Hacıbəyov, Qara Qarayev və sair var. Bunlar bizim azərbaycanlı olaraq sosial kimliyimizi təyin edən komponentlərdir. Eyni zamanda, hər bir azərbaycanlının sosial kimliyində ozan-aşıq sənətinin böyük nümayəndəsi Aşıq Ələsgər var. Bu gün Bakı şəhərinin gözəl yerlərinin birində Aşıq Ələsgərin abidəsi ucaldıldı. Azərbaycan Prezidenti orada çıxış etdi. Mənə elə gəlir ki, bu gün həm də bir poeziya bayramıdır. Nəticə etibarı ilə bütün bunlar gələcək nəslimizin tərbiyəsində öz nəticəsini verəcəkdir. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Hikmət müəllim. Hörmətli həmkarlar, daha çıxış etmək istəyən yoxdur. Mən qərar layihəsini səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.53 dəq.) |
|---|---|
| Lehinə | 121 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 122 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qərar qəbul edildi.

Hörmətli həmkarlar, biz gündəliyin sonuncu 17-ci məsələsinə keçirik. Bu məsələ Milli Məclisin yeni bir komissiyasının – Xarici müdaxilələrə və hibrid təhdidlərə qarşı müvəqqəti komissiyasının yaradılması haqqındadır. Hörmətli həmkarlar öz çıxışlarında bu mövzu haqqında da danışdılar. Biz hamımız yaxşı xatırlayırıq ki, Azərbaycan Respublikasının Prezidenti möhtərəm cənab İlham Əliyev Milli Məclisin ilk iclasında çıxışının önəmli bir hissəsini müəyyən xarici dairələrin ölkəmizə qarşı hazırladığı planlara, onların apardığı qarayaxma, iftira, böhtan kampaniyalarına, ideoloji təxribatlara həsr etmişdi.

Bildiyiniz kimi, ideoloji təhlükəsizlik məsələləri dövlətimizin ərazi bütövlüyü və suverenliyi bərpa edildikdən sonra xüsusi aktuallıq kəsb etmişdir. Xalqımızın tarixi qələbəsi ilə barışa bilməyən qüvvələr Cənubi Qafqaz bölgəsinə daxil olmaq və burada möhkəmlənmək, Azərbaycanın işlərinə qarışmaq cəhdlərindən heç əl çəkmirlər. Bu səbəbdən ölkəmiz mürəkkəb xarakterli təhlükələrlə üzləşir. Ənənəvi çağırışların qalmaqda davam etdiyi bir

şəraitdə yeni, daha məkrli müdaxilə formaları da ortaya çıxır. Bu cür hərəkətlər dövlətimizi daxildən zəiflətməyə, ictimaiyyətin dövlət institutlarına etimadını sarsıtmağa və nəticə etibarı ilə milli maraqlarımıza xələl gətirməyə, müstəqilliyimizi və ictimai-siyasi sabitliyimizi təhlükə altına almağa yönəlmişdir.

Onu da deyim ki, bir sıra hallarda biz üstüörtülü təhdidlər və müdaxilələrlə qarşılaşırıq. Cəmiyyətimiz və dövlətimiz ilə manipulyasiya etmək cəhdləri çoxgedişli təbliğat kampaniyaları, – hamımız yaxşı bilirik, – saxta şüarlar ilə pərdələnir. Bu baxımdan, hesab edirəm ki, komissiyanın fəaliyyəti çevik, aktiv və preventiv xarakter daşımalıdır.

Hörmətli deputatlar, müvəqqəti komissiyanın yaradılması haqqında qərar layihəsi sizə paylanıb. Layihədə komissiyanın vəzifə və səlahiyyətləri, onun tərkibinə seçilməsi nəzərdə tutulan deputatların adları da göstərilib.

Məsələ ilə bağlı danışmaq istəyən hörmətli həmkarlarımız var. Biz müzakirələrə keçirik. Birinci çıxış. Arzu Nağıyev. Buyurun.

**Arzu Nağıyev.** Təşəkkür edirəm, xanım sədr. Mən də Sizi, eyni zamanda, həmkarlarımızı təbrik edirəm.

Hörmətli həmkarlar, media nümayəndələri, xarici müdaxilələrə və hibrid təhdidlərə qarşı müvəqqəti komissiyanın yaradılması, düşünürəm ki, zamanın tələbidir və mühüm bir addım kimi dəyərləndirilməlidir. Bu gün Ermənistanda revanşist qüvvələr baş qaldırmaqdadır. Həmçinin Ermənistan hakimiyyətini vasitə kimi istifadə edərək tək Azərbaycana deyil, bütün regiona, qonşu dövlətlərə qarşı istifadə etmək Qərbdəki bir sıra qüvvələrin əsas məqsədidir.

Müxtəlif ölkələr, təbii ki, öz müstəqil daxili və xarici

siyasəti olmayan Ermənistanın guya arxasında dayanaraq ondan vasitə kimi istifadə etməkdədir. Ermənistan öz növbəsində qələbəmizi həzm etməyən ölkələrlə əlbir olub Azərbaycana qarşı məkrli siyasət aparır. Bununla əlaqədar Ali Baş Komandan Prezident İlham Əliyev parlamentdəki çıxışında bu istiqamətlərdə mühüm mesajlar verdi. Ermənistan və onun arxasında dayanan istənilən qüvvə və ölkə bilməlidir ki, Azərbaycanın dönməz daxili və xarici siyasəti var, müstəqilliyimizə və suverenliyimizə, ərazi bütövlüyümüzə yönələn təhdidlərin formasından asılı olmayaraq qarşısı birmənalı şəkildə alınır və alınacaqdır.

Son vaxtlar Ermənistanın havadarları bir sıra təhdid metodlarından, o cümlədən hibrid müharibə kimi tanınan metodlardan istifadə etməyə cəhd edir. Onlar unutmamalıdırlar ki, hər hansı təhdidin qarşısının alınması üçün bizim güclü ordumuz, xüsusi xidmət orqanlarımız, hərbi birləşmələrimiz və bir yumruq kimi birləşməyə qadir Azərbaycan xalqı var. Bu məkrli siyasətdə istifadə etməyə cəhd edilən hibrid təhdid, hibrid müharibə nədir və onlarla hansı yollarla mübarizə aparılmalıdır – bunları bilmək mühüm məsələdir.

Qeyd edildiyi kimi, hibrid təhdidlər məkrli niyyətlə planlaşdırılan və həyata keçirilən açıq və ya gizli hərbiləşdirilmiş, qeyri-hərbi vasitələrin geniş spektrini əhatə edən bir metoddur. Əsas hədəfləri dövlət və dövlətçiliyin məhvidir. Təhlillər göstərir ki, düşmən qüvvələr, sadə dillə desək, adi və qeyri-ənənəvi güc və təxribat vasitələrinin qarşılıqlı təsiri və ya birləşməsindən istifadə edir, burada müharibə ilə sülh arasında ayrıca xətt aydın görünmür. Həm sülhdən danışırlar, eyni zamanda, müharibə arzusu ilə yaşayırlar.

Hibrid oyunçular ölkə daxilində olan agentura və

satqınlar şəbəkəsi vasitəsi ilə qəsdən qeyri-müəyyənlik yaradır, onu gücləndirir, hücuma məruz qalan ölkənin xüsusi xidmət orqanları və siyasi rəhbərliyi zəif olarsa, nə hibrid hücumu aşkar edə, nə də hansı dövlətin düşmənçiliyini və havadar olduğunu müəyyən edə bilmir. Eyni zamanda, mülki əhalinin rolu ön plana çıxır. Onların dövlətə münasibətdə necə düşünməsi, hərəkət etməsi və burada xalq və siyasi hakimiyyətin vəhdəti çox mühüm rol oynayır. Biz 44 günlük müharibədə bunun şahidi olduq. Həmçinin sosial şəbəkələrdə də aktiv olmaq, dövlət və dövlətçiliyi dəstəkləmək ən mühüm amillərdən biridir.

Cənab Prezidentin dəfələrcə qeyd etdiyi kimi, xalq dövlətin legitimliyinin və gücünün mənbəyidir. Əgər dövlətlə xalq arasında narazılıq salınarsa, bu, dövlətin dağılmasına şərait yaradar. Hibrid müharibəni aparmaq istəyənlərin də ən başlıca məqsədi budur.

Ölkə rəhbərliyi tərəfindən aparılan düzgün siyasət və bunun nəticəsində ən mühüm amillərdən biri təkcə xalqın dövlətə inamı deyil, eyni zamanda, insanların bir-birinə inamıdır. Bu gün özlərini demokratiyanın beşiyi adlandıran Qərb dövlətlərində, Fransada, Almaniyada və sair də populizmin artması artan siyasi qütbləşmənin əlamətləridir. Nəticədə cəmiyyətin sosial və siyasi strukturu təhlükə altına düşür və bütün səviyyələrdə qərarların qəbulunda konsensusun inkişaf etdirilməsi çətinləşir və biz bunun şahidiyik. Özləri üçün önəmli siyasi addımlar ata bilməyənlər bizə qarşı məkrli siyasət oyunları aparmağa çalışır. Onlar unutmamalıdırlar ki, qarşılarında heç bir diktə qəbul etməyən Azərbaycan kimi dövlət durur.

Hörmətli həmkarlar, bu gün vətəndaşlarımızın arasında qarşılıqlı etimadın yaradılması hibrid müharibəni və hibrid təhdidləri neytrallaşdırmaq səylərinin mərkəzi, məqsədi

olmalıdır. Buna görə həm də parlament səviyyəsində bu təhlillərin aparılması mühüm məsələdir. Müxtəlif dövlətlərlə olan parlamentlərarası dostluq qrupları da, beynəlxalq səviyyədə təmsil olunan deputatlarımız da bu mühüm məsələdə öz səylərini əsirgəməməli və daha ciddi işlər aparılmalıdır. Bir daha qeyd etmək istərdim ki, daha səmərəli nəticənin əldə edilməsi üçün xarici müdaxilələr və hibrid təhdidlərə qarşı müvəqqəti komissiyanın yaradılması çox mühüm və təqdirəlayiq bir məsələdir. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Çox sağ olun. Hörmətli həmkarlar, sədr müavini hörmətli Ziyafət müəllim söz istəyir. Ziyafət müəllim, buyurun.

**Ziyafət Əsgərov.** Çox sağ olun. Hörmətli xanım sədr, mən də öz növbəmdə Siz başda olmaqla hamınızı təbrik edirəm və Məclisin fəaliyyətinə uğurlar arzulayıram.

Mən konkret olaraq qısaca bu komissiyanın yaradılmasının vacibliyi ilə bağlı fikirlərimi bildirmək istəyirəm. Biz bu yaxınlarda Kiberdiplomatiya üzrə Beynəlxalq konfransda iştirak etdik. Hörmətli həmkarlarım Fariz müəllim, Ramid müəllim, Arzu müəllim də orada iştirak edirdilər. Həqiqətən, bu, çox səviyyəli bir konfrans idi. Elə orada da müzakirələr vaxtı belə bir ideya meydana çıxdı ki, Azərbaycanda kiber təhlükəsizlik haqqında qanun layihəsi qəbul olunsun. Bu, olduqca vacibdir. Düzdür, bizim "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Qanunumuz var. Amma bu qanun 26 il əvvəl qəbul olunub. Ona görə də yeni təhdidlərə, yeni çağırışlara rəğmən, mən hesab edirəm ki, bu komissiya hörmətli Arzu müəllimin rəhbərlik etdiyi komissiya ilə bir yerdə bu qanun layihəsini işləyib hazırlaya bilər. Sözsüz, yeni dövrün çağırışlarına, təhdidlərinə qarşı, əlbəttə, yeni

müddəalar, yeni normalar olmalıdır ki, biz, belə demək mümkünsə, o təhdidlərin qarşısını ala bilək, bir çox hallarda isə onları qabaqlaya bilək. Təşəkkür edirəm. Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Ziyafət müəllim. Növbəti çıxış. Ramid Namazov. Buyurun.

**Ramid Namazov.** Hörmətli xanım sədr, hörmətli həmkarlar. Bildiyiniz kimi, möhtərəm Prezidentimiz müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi altında Vətən müharibəsində qazanılan tarixi Zəfərimizin və ötən il suverenliyimizin tam bərpa edilməsindən sonra regionda geosiyasi vəziyyət tamamilə dəyişmişdir. Bu xüsusda bir həftə öncə cənab Prezidentin Milli Məclisin ilk iclasında səsləndirdiyi çox vacib məqamlardan birini sitat gətirmək istərdim. Hörmətli xanım sədr də bu məsələni qeyd etdi. “Bizim qələbəmizi həzm edə bilməyən xarici dairələr bizə qarşı yeni planlar hazırlayır. Bu barədə geniş danışmağa ehtiyac yoxdur. Ancaq əldə edilmiş məlumatlar bunu göstərir. Media kampaniyasının, qarayaxma, iftira, böhtan kampaniyalarının da məqsədi məhz budur. Bu mövzunu daim gündəlikdə saxlamaq və ümidlə yaşamaq ki, nə vaxtsa Azərbaycan büdrəsə, zəifləsə, yenidən bizə qarşı bu çirkin hərəkətə başlasın, yəni biz bunu bilməliyik. Azərbaycan iqtidarı bunu bilir, ictimaiyyət də bunu bilməlidir. Buna görə bizim arxayınlaşmağa heç cür haqqımız yoxdur”.

Dövlətimizin başçısının Azərbaycan xalqına ünvanladığı bu mesaj hər birimizi ciddi düşündürməlidir. Tarixi ədalətin bərpasına, möhtəşəm qələbəmizə dostlarımız sevinsələr də, görünən odur ki, bizi istəməyən qüvvələr ölkəmizin daxili işlərinə müdaxilə cəhdlərini daha da artıracaq, məkrli fəaliyyətlərini hibrid təhdidlər formasında geniş-

ləndirəcəklər. Xalq olaraq bu qüvvələrdən qorunmalı olduğumuz bir neçə əsas sahə var ki, onları qeyd etmək istərdim. Bunlar dövlətimizin təhlükəsizliyi, iqtisadi müstəqilliyimiz, milli-mənəvi, dini və multikultural dəyərlərimiz, dövlətimizin beynəlxalq nüfuzu və ölkəmizin qanunlarıdır.

Xalqımızın birliyinin ən yüksək səviyyədə olmasına baxmayaraq, düşmənlər bu vəhdəti sarsıtmaq, ictimai rəyi çaşdırmaq və cəmiyyətdə qütbləşmə yaratmaq məqsədi ilə yalanı doğru kimi təqdim etməyə, saxta hekayələr yaymağa davam edirlər. Ermənistan, erməni lobbisi və onlar qədər bizi sevməyən digər qüvvələrin insanlarımızın düşüncələrinə təsir etməsi, milli və iqtisadi təhlükəsizliyimizə risklər yaratması üçün müxtəlif vasitələrin olduğunu nəzərə alaraq, biz qarşımızda duran bütün təhdid və çağırışlara hazır olmalıyıq.

İcazənizlə, hibrid təhdidlərin bəzi nümunələrini sadalamaq istərdim. Bunlara dezinformasiya və informasiya əməliyyatlarını, kiber hücumları, casusluq, seçkilərə müdaxilə, iqtisadi alətlərlə təsir və təzyiq etməni, kritik infrastruktur sabotajını, zərərli ideologiyaları və dini pərdə adı altında aparılan qeyri-qanuni fəaliyyətləri və sair bu kimi məsələləri aid etmək olar.

Cənab Prezidentin vurğuladığı kimi, Azərbaycana qarşı hibrid təhdidlərin, əsasən, media kampaniyaları, dezinformasiya, saxta məlumatlar yaymaq kimi formalarından istifadə edilir. Lakin şübhə yoxdur ki, fürsət düşdükcə də qarşıdan gələn mötəbər beynəlxalq tədbirlər fonunda ölkəmizlə bağlı bu təhdidlərin digər təhlükəli növlərindən də istifadəyə cəhdlər ediləcək, bu istiqamətdə müxtəlif araşdırma və beyin mərkəzlərində simulyasiyalar aparılacaqdır.

Hibrid təhdidlər cəmiyyətə bütün səviyyələrdə təsir

edir. Koordinasiya edilmiş fəaliyyətlər aparılarkən bir çox qarışıq alətlərdən istifadə olunduğu üçün fərdi şəkildə baş verən hansısa hadisənin geniş bir kampaniyanın tərkib hissəsi olduğunu müəyyən etmək və ona vaxtında cavab vermək çox zaman asan olmur.

Azərbaycan Respublikasının Milli Məclisi dövlətimizin inkişafı və təhlükəsizlik sahəsində möhtərəm Prezidentimizin həyata keçirdiyi uzaqgörən və müdrik siyasətinə daim dəstək vermişdir. Əminəm ki, bu dəstəyin davamı olaraq və dövlətimizin müxtəlif təhdidlərdən etibarının qorunması baxımından hörmətli deputat həmkarlarım Xarici müdaxilələrə və hibrid təhdidlərə qarşı komissiyanın yaradılması ilə bağlı qərarın lehinə səs verəcəklər. Diqqətiniz üçün çox sağ olun.

**Sədrlik edən.** Sağ olun. Kamran Bayramov. Buyurun.

**Kamran Bayramov.** Hörmətli xanım sədr, hörmətli həmkarlar. Müzakirəmizə çıxarılmış Xarici müdaxilələrə və hibrid təhdidlərə qarşı müvəqqəti komissiyanın yaradılması məsələsinə mən də münasibət bildirmək istərdim. Heç kim üçün sirr deyil ki, Azərbaycanın 44 günlük Vətən müharibəsində tarixi Zəfər qazanması, ərazi bütövlüyünü bərpa etməsi, bütün ərazisində suverenliyini tam təmin etməsi və regionda yeni reallıqlar yaratması bəzi ölkələri və dairələri ciddi narahat edir. Onlar bu vəziyyətlə barışa bilmirlər. Müxtəlif təxribatlara əl atırlar. Bu təxribatlar artıq hibrid xarakter alıb. Belə ki, Cənubi Qafqazda qüvvələr nisbətini dəyişdirmək, regionda sülh gündəliyini pozmaq, Azərbaycanın dünyada nüfuzunu sarsıtmaq məqsədi ilə həmin ölkələr və dairələr dövlətimizə qarşı qərəzli qarayaxma kampaniyaları təşkil edirlər, beynəlxalq təşkilatlarda və öz parlamentlərində ölkəmizlə bağlı dinləmələr keçirirlər, yalan, qərəz və təhrif dolu qətnamələr

qəbul etdirirlər, təxribatçı və absurd bəyanatlar səsləndirirlər.

Eyni zamanda, insan hüquqları, demokratiya, liberal dəyərlər adı ilə ölkəmizə təsir göstərərək Azərbaycanın dövlət kimi real obrazını mənfiyə çevirməyə, dəyişməyə can atırlar. Elə bu gün də həmin qüvvələr üzərində işğalçı damğası əbədi həkk olunmuş Ermənistanı kənardan silahlandırır, maliyyələşdirir və onun cəmiyyətində utopik revanş meyillərini təşviq edirlər. Bununla kifayətlənməyərək həmin qüvvələr ölkəmizin daxilində də ideoloji təxribatlar törətməyə, siyasi, diplomatik, hüquqi, ideoloji, iqtisadi və kiber təsirlər həyata keçirməyə, xalqımızın, cəmiyyətimizin hakimiyyətə olan geniş etimadını və etibarını pozmağa, daxili vəziyyəti süni şəkildə sabitləşdirməyə cəhd göstərirlər. Azərbaycanın qüdrətli dövlət və güclü cəmiyyət quruculuğunu, müstəqil siyasət kursunu sarsıtmağa çalışırlar. Bütün bu cəhdlərin uğursuz olduğuna, onların dövlətimizə və cəmiyyətimizə təsirlərinin sıfıra bərbər olduğuna baxmayaraq, biz hər zaman istənilən müdaxiləyə, təxribata, təhdidə hazır olmalıyıq.

Möhtərəm cənab Prezident də elə bu salonda yeddinci çağırış Milli Məclisin ilk iclasında məhz bu məsələyə xüsusi diqqət yetirməklə ideoloji təxribatların olduğunu qeyd etdi, buna hazır olmağımızı, bizə qarşı olan təhdidləri və oyunları ifşa etməli olduğumuzu bildirdi, həm də Milli Məclisin ideoloji təhlükəsizlik məsələsinə daim diqqət yetirməli olduğumuzu vurğuladı. Ona görə də düşünürəm ki, Milli Məclisdə müvafiq komissiyanın yaradılması ölkəmizdə ideoloji təhlükəsizliyin təmin edilməsi, xaricdən olan təsirlərlə mübarizənin gücləndirilməsi istiqamətində vaxtında atılan və səmərəli bir addımdır.

Nəzərə alsaq ki, bir çox deputatlarımız əksər beynəlxalq parlamentlərarası təşkilatlarda və qurumlarda təmsil

olunur, ikitərəfli parlamentlərarası əməkdaşlıq formatında xarici həmkarları ilə daim təmasda olur, heç bir şübhə yoxdur ki, Milli Məclis xarici müdaxilələrin və hibrid tədbirlərin qarşısının alınması işinə öz dəyərli təsirini və əhəmiyyətli töhfəsini verəcəkdir. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. İndi isə mən sözü sədr müavini hörmətli Rafael müəllimə verirəm. Rafael Hüseynov. Buyurun.

**Rafael Hüseynov.** Təşəkkür edirəm. Möhtərəm xanım sədr, hörmətli Milli Məclis üzvləri. Bu anlarda biz Azərbaycan tarixinin ən əlamətdar dəqiqələrini yaşayırıq. Bütün müstəqillik dönəmimizdə səkkizinci dəfədir ki, Azərbaycan Milli Məclisi işə başlayır.

Əsrin əvvəlində Azərbaycan Cümhuriyyəti dönəmində ilk Milli Məclisimiz – Məclisi Məbusan yaranmışdı, fəaliyyətə başlamışdı. Ancaq indi müzakirə apardığımız qanun layihəsinin də bilavasitə bağlı olduğu təhlükələr, təhdidlər imkan vermədi ki, o yolumuz davam etsin. Sonra biz 70 il bu müstəqilliyin, istiqlalın və öz Milli Məclisimizin olmasının həsrətini çəkdik. Doğrudur, Sovet dönəmində, 70 il ərzində 21 dəfə parlamentimiz çağırıldı, fəaliyyət göstərdi, amma bu, müstəqil olan parlament deyildi.

1991-ci ildə “Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında” Konstitusiya Aktı elan edildikdən sonra biz istiqlal yolumuzu, müstəqillik yolumuzu davam etməyə başladıq. Artıq yeddinci dəfədir ki, müstəqil dövlətimizin parlamentini seçirik. Fəlsəfəsini düşünəndə bu, xalq üçün, burada oturan 125 nəfər və Azərbaycan Respublikasındakı hər bir insan üçün ən ali sərvətdir. Çünki bir millətin var olduğu müddətcə qazandığı ən ali dəyər onun

istiqlalıdır, dövlət müstəqilliyidir. Hər bir Azərbaycan insanı onun qədrini bilməlidir. Xüsusən 70 il onun həsrətini çəkmiş bu xalq onun nə qədər böyük sərvət olduğunu anlayır.

Bu anlarda biz mütləq Ulu Öndərimiz Heydər Əliyevi anmalıyıq. 1993-cü ildə Azərbaycan müstəqilliyi, Azərbaycan istiqlalı yenə əsrin əvvəlində olduğu kimi tarixin kinayəsi ilə 2 yaşına çatmadan qırılmaq təhlükəsi ilə üzüzə idi. Azərbaycan nə xoşbəxtdir ki, onun Heydər Əliyev kimi böyük, uzaqlara baxmağı bacaran, iradəli, qətiyyətli, əzmli bir övladı var idi. O, Azərbaycan müstəqilliyini və istiqlalını, o cümlədən bizim Milli Məclisimizi, parlamentimizi xilas etdi, o fırtınalı illərin içərisindən keçirdi və XX əsrdən XXI əsrə gətirdi.

Heydər Əliyevin və onun böyük yolunun davamçısı Prezident İlham Əliyevin müstəsnalığı ilk növbədə bundan ibarətdir ki, əsrin əvvəlində Azərbaycan Cümhuriyyətini qurmuş və bizim həmişə minnətdar olacağımız qurucu babalar həmin müstəqilliyi, istiqlalı vur-tut 23 ay ərzində saxlaya bilmişdilər. Əlbəttə, bu böyük qurucular hamısı istəyirdi ki, bu istiqlal əbədi olsun. Lakin indi biz dövlət müstəqilliyimizin, istiqlalımızın bərpadan sonrakı 33 yaşını bayram etməyə hazırlaşırıq. Bu müstəqillik, bu istiqlal 33 yaşına gəlib çatıbsa, bu iki insana – unudulmaz Heydər Əliyevə və Azərbaycan xalqının böyük övladı, böyük fateh sərkərdə Prezident İlham Əliyevə minnətdar olmalıyıq.

Təbii, bizim istiqlalımıza, müstəqilliyimizə təhlükələr hər zaman olub, bu gün də var və gələcəkdə də olacaq. Ona görə biz hər an ayıq olmalıyıq. Tarixin dərsləri də bizə bunu öyrədir ki, daim səfərbər olaq. Biz 2020-ci ilin noyabrında müasir tariximizin ən böyük Zəfərinə imza

atdıq. Bu millət ləyaqət hissini, şərəf hissini, vicdan hissini yenidən ən ucalarda gördü. Azərbaycan dövləti elə bir Zəfər çaldı ki, bu, bütün tariximizin ən parlaq bir səhifəsidir.

2021-ci ilin yanvar ayında biz Strasburqa Avropa Şurası Parlament Assambleyasının növbəti toplantısına getmişdik. Biz dərhal hiss etdik ki, Azərbaycana qarşı münasibətlər dəyişib. İki nöqtədə münasibət dəyişikliyi var idi. Birinci, ən müxtəlif ölkələrdən olan siyasətçilər, deputatlar artıq Azərbaycana məğlub bir ölkənin deyil, qalib bir ölkənin təmsilçiləri kimi baxırdılar. Digər bir münasibət ondan ibarət idi ki, artıq müəyyən siyasi səviyyələrdə Azərbaycana təzyiqlər, təhdidlər, təhlükələr artmağa başladı. Hər yeni sessiyada gündəliyə Azərbaycanla bağlı bir-birinin ardınca yeni məruzələr daxil edirdilər, Azərbaycana qarşı ən müxtəlif istiqamətlərdə hücumlar təşkil edirdilər. İndi Avropa Şurası Parlament Assambleyasının növbəti sessiyası başlayır və həmin cəhdlər yenə də davam etməkdədir. Davam edən bu cəhdlər, ən müxtəlif istiqamətlərdən – internet televiziyalarından, xarici radiosəslərdən, müxtəlif informasiya agentliklərindən Azərbaycana qarşı olan hücumlar yalnız siyasət meydanında, dövlət idarələrində çalışanları deyil, hər bir Azərbaycan vətəndaşını mütləq səfərbər etməlidir ki, bu mübarizələrə sinə gərsinlər. Çünki bu istiqlal, bu müstəqillik, bu dövlət bizim hamımızındır, bütün Azərbaycanındır, bütün tariximiz boyu da bizim ən ali dəyərimizdir.

1400 il boyu bu günədək gəlib çatan bir fikir var. Yaşamağa layiq müdrik bir fikirdir: “Bizdən öndə gedənlər bizi gözləyəcəklər, bizdən arxada gələnlər özünü bizə çatdıracaqlar, çünki bizim yolumuz haqq yoludur”. Azər-

baycan haqq-ədalət yolu, demokratiya, insana sevgi və hörmət yolu ilə gedir. Azərbaycan çağdaş tarixinin ən böyük Zəfərini qazanıb, ərazisini bütövləşdirib. Bu bütövlüyün rəmzi, timsalı bu parlamentdir.

Parlament seçkiləri ilə də bağlı Azərbaycana qarşı ən müxtəlif tərəflərdən əks-sədalar eşidilməyə başlandı. Səbəb o deyildi ki, guya seçkilərin gedişində hansısa qüsurlar gözə dəyib. Mən 20-dən artıq ölkədə müxtəlif parlament seçkilərini, prezident seçkilərini müşahidə etmişəm. Dünyada heç yerdə ideal seçkilər olmur. Ancaq bizim bu seçkilərimizdə Şuşada, Xankəndidə, Cəbrayılda, Füzulidə, Ağdamda, Zəngilanda, Qubadlıda, Kəlbəcərdə, Laçında seçki məntəqələri, seçki qutuları var idi. İnsanlar gəlib o seçki qutularına bülletenlər atırdılar, səs verirdilər. O seçkilərlə, parlamentimizin formalaşması ilə əlaqədar gələn kənar səslərin, onlara bənzər müxtəlif canfəşanlıqların arxasında dayanan əsas səbəb ondan ibarətdir ki, bütövlük var idi. Onlar bunun əleyhinədirlər. Biz də əleyhimizə olan bu qüvvələrə qarşı daim səfərbər olmalı, mübarizələr aparmalıyıq.

Düşünürəm ki, bu komitə də vaxtında yaradılır. Bununla yanaşı, yaradılmalı olan başqa qurumlar da var. Bizim dünyaya açılan, Azərbaycanın səsi olan yaxşı bir radio, televiziya qurumuna ehtiyacımız var ki, Azərbaycanın səsini, həqiqətlərini hamıya çatdırsın və təhdidlərə qarşı dövlətimizi oradan da müdafiə etsin. Düşünürəm ki, bunlar da yaranarsa, həmin bu komitənin işinin daha mütəşəkkil olmasına öz faydasını verə bilər.

**Sədrlik edən.** Sağ olun, Rafael müəllim. İndi isə Nizami Səfərov. Buyurun.

**Nizami Səfərov.** Hörmətli xanım sədr, Siz başda olmaqla bütün deputatları təbrik edirəm və fəaliyyətlərində

davamlı uğurlar arzulayıram.

Hörmətli xanım sədr, hörmətli deputatlar. XXI əsrin birinci yarısında qarşılaşdığımız təhlükəli çağırışlar sırasında suveren dövlətlərin daxili işlərinə xarici müdaxilələr və hibrid təhdidlər xüsusi yer tutur. Azərbaycanın milli təhlükəsizlik maraqlarına zidd olan bu amillər beynəlxalq leksikona daxil edilmiş hibrid müharibə konsepsiyasının substantiv elementidir. Nəzərə alaq ki, belə bir konsepsiya və onun əsasında formalaşan strategiya və bunların təzahürləri geniş ictimaiyyətə məlum deyil, bəzi məsələlərə aydın gətirmək zəruridir.

Hibrid müharibə termini ilk dəfə olaraq Amerika Birləşmiş Ştatlarında çalışan, milli təhlükəsizlik məsələləri üzrə analitik və hərbi məsləhətçi Frend Hofman tərəfindən 2007-ci ildə dərc edilən "XXI əsrdə münaqişə, hibrid müharibənin yüksəlişi" monoqrafiyasında işıq üzü görmüşdür. Hibrid müharibənin siyasi fenomen olaraq xarakterik xüsusiyyətlərinə nəzər salsaq, qeyd olunmalıdır ki, münaqişədə qalib gəlmək üçün hərbi xarakter daşımayan üsullardan da istifadə olunur və bu cür üsulların və vasitələrin geniş diapazonu var. Məsələn, düşmənçilik xarakteri daşıyan məlumatların toplanması və informasiya fəzasında istifadə edilməsi, kiber hücumlar, müxtəlif etiraz aksiyalarının təşkili sosial şəbəkələrdə qarayaxma kampaniyası, "fake" xəbərlərin dövriyyəyə daxil edilməsi və sair.

Hibrid təhdidlər kredit infrastrukturu, yəni iqtisadiyyat, dövlət qurumları ölkənin təhlükəsizliyini təmin edən qurumlar üçün, strateji əhəmiyyət kəsb edən idarəetmə sistemləri üçün fövqəladə təhlükə mənbəyidir. Bu sırada sadəcə kritik informasiya infrastrukturunun təhlükəsizliyinə təhdidləri qeyd etmək kifayətdir. Sadalanan məqamlar əyani formada nümayiş etdirir ki, biz həddindən artıq

mürəkkəb bir dövrdə yaşayırıq və bu dövrün təhdidlərinə və çağırışlarına qarşı ciddi preventiv tədbirlər görülməlidir.

30 ilə yaxın bir müddətdən sonra erməni işğalına son qoyulması, Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin tam bərpa olunması bəzi dövlətlər, onların birlikləri və beynəlxalq təşkilatlar tərəfindən qeyri-adekvat reaksiyaya səbəb olmuşdur. Ermənistanın revanşist meyillərinin alovlandırılması, geniş silah təchizatına dəstək verilməsi, ölümcül silah növlərinin Ermənistana ötürülməsi, müxtəlif mənbələrdən irimiqyaslı maliyyə vəsaitlərinin ayrılması – bütün bunlar əyani formada nümayiş etdirir ki, bir sıra qüvvələr regionda beynəlxalq sülhün və təhlükəsizlik rejiminin bərqərar olmasında maraqlı deyillər. Bütün bunlar ölkəmizin apardığı siyasətə xaricdən müdaxilə ilə və Azərbaycan əleyhinə bir çox hibrid təhdidlərlə müşahidə olunur. Belə bir şəraitdə qeyd etdiyim cəhdlərin qarşısının alınması, milli maraqların və milli təhlükəsizliyin qorunması istiqamətində yeni addımların atılması və bütün zəruri tədbirlərin görülməsi fundamental əhəmiyyətə malikdir. Bu addımların parlament müstəvisində də reallaşdırılması ümumi işimizə çox faydalı ola bilər.

Xarici müdaxilələrə və hibrid təhdidlərə qarşı müvəqqəti komissiyanın yaradılması zamanın tələbidir və yüksək dərəcədə əhəmiyyətli ola bilər.

Hörmətli deputatlar, müasir mərhələdə möhtərəm cənab Prezidentin rəhbərliyi altında xalqımızın həyati maraqlarına cavab verən daxili və xarici siyasət həyata keçirilir və heç bir xarici müdaxilə cəhdi və ya beynəlxalq müstəvidə müşahidə etdiyimiz neokolonializm meyilləri, yaxud potensial təhdidlər bizi bu yoldan döndərə bilməz. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Çox sağ olun. Hörmətli həmkarlar, elə bu məqamda mən qeyd etmək istəyirəm ki, Nizami müəllim hibrid təhlükəsizlik termininə toxundu və bununla bağlı ilkin bir məlumat verdi. Mən bizim hörmətli deputatımız Ramid müəllimlə görüşmüşdüm və bir təklif də vermişdim ki, bu ilin axırınadək Siz bir dinləmə keçirəsiniz. Bu dinləmə zamanı, təbii ki, tək komissiyanın üzvlərini deyil, həm hüquqşünaslarımızı, həm də Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin üzvlərini də dəvət edəsiniz. Mən düşünürəm ki, bu məsələlərin hamısını mütləq cəmiyyətə geniş formada açıqlamaq lazımdır. Çünki bu hibrid təhlükəsizlik termini hələ çox təzədir. Ona görə bununla bağlı... Fərid müəllim, Mehman müəllim Qaibov buradadır?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Yoxdur. Xahiş edirəm, bu müvəqqəti komissiyanın yaradılması haqqında məlumatı Mehman müəllim "Parlament saatı" proqramına hökmən daxil etsin. Sonra komissiyanın sədri Ramid müəllim, Nizami müəllim, Əli müəllim, Ziyafət müəllim bu məsələlərlə bağlı müsahibə versinlər.

Eyni zamanda, bir məsələni də qaldırmaq istəyirəm. Bizim "YouTube" kanalımız var. Mən bu gün bizim yeni seçilmiş hörmətli deputatlara üzümü tuturam. Nizami müəllim, Ramid müəllim yeni seçilmiş deputatdır. Arzu müəllim, Əli müəllim, Ziyafət müəllim, xahiş edirəm, "YouTube" kanalında mütləq bu məsələlərlə bağlı bir dəyirmi masa təşkil edəsiniz. Hansı məsələlər lazımdırsa, ən birinci, yəni əvvəldən başlayaq. Ona görə də 30-40 dəqiqəlik dəyirmi masa təşkil etmək lazımdır və bu da mütəmadi olmalıdır, birdəfəlik aksiya olmasın. Xahiş edirəm, bunların hamısını həyata keçirəsiniz.

Siyavuş müəllim, deyəsən, təklifiniz var. Yazılmısınız. Təxminən, bilirəm, nədir. Buyurun.

**Siyavuş Novruzov**. Təşəkkür edirəm, hörmətli xanım sədr. Burada bizim həmkarlarımız bu təhlükə ilə bağlı həm nəzəri, həm də praktik cəhətdən fikirlərini söylədilər. Aydındır. Siz də çox düzgün qeyd etdiniz ki, bunu daha geniş şəkildə ictimaiyyətə çatdırmaq lazımdır. Amma təklifim ondan ibarətdir ki, bunun qarşısının alınmasından ötrü Milli Məclisin deputatlarının üzərinə hansı vəzifələr düşdüyünü desinlər. Xaricdə olan o söyüş kampaniyasına qarşı kimlər necə çıxış etməlidir? İndiyə qədər çıxış ediblərmi? Bundan sonra edəcəklərmi? Bütün bu məsələlərin hər birinin öz detalları var. Ona görə də hər kəs ilk növbədə cənab Prezidentin qoyduğu vəzifəni dərk etməlidir və öz üzərinə düşən vəzifəni yerinə yetirməlidir. O baxımdan da çıxış edənlər bunun nəzəriyyəsini danışmaqla yanaşı, deputatın da üzərinə düşən vəzifəni, xahiş edirəm, izah etsinlər.

**Sədrlik edən.** Siyavuş müəllim, düz deyirsiniz, ancaq yeni yaranıb. Yığışsınlar, danışsınlar. Bu komissiya yeni yaranıb və bəlkə hələ üzvləri də bir-biri ilə tanış deyil. Təbii ki, bunlar hamısı olacaq. Tələsməyin.

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Hörmətli Əli müəllim söz istəyir. Mən Əli müəllimə söz verim. Əli Əhmədov. Buyurun.

**Əli Əhmədov**. Təşəkkür edirəm, hörmətli Sahibə xanım. Sizi və Azərbaycan parlamentinə seçilmiş hər bir millət vəkilini ürəkdən təbrik edirəm. Eyni zamanda, yəqin ki, bu təbrikdən mənim özümə də kiçik bir pay düşür. Mən məmnunluğumu bildirmək istəyirəm ki, xeyli keçən müddətdən sonra, təxminən 11 ildən sonra yenidən Azərbaycan Respublikasının Milli Məclisinə qayıtmışam.

Mən buna böyük önəm verirəm. Hesab edirəm ki, şərəfli bir işdir. Bu Məclisdə oturanların xeyli hissəsini tanıyıram. Yeni simalar var, güman edirəm ki, onlarla da bizim çox işgüzar münasibətlərimiz formalaşacaqdır.

Konkret bu məsələ ilə əlaqədar da bir neçə fikrimi söyləmək istəyirəm. İndi Siyavuş Novruzov da bəzi məsələləri dedi. Bir növ o kontekstdə demək istəyirəm. Güman edirəm, xatırlayırsınız, hörmətli Prezidentimiz fevral ayının 17-də andiçmə mərasimində yeni seçilmiş Prezident kimi proqramını izah edərkən ilk növbədə və xüsusilə tərbiyə məsələlərini ön plana çəkdi. Söhbət, bütövlükdə, milli-mənəvi dəyərlərin möhkəmləndirilməsindən, gücləndirilməsindən, Azərbaycana, dövlətçiliyimizə məxsus düşüncənin hər bir vətəndaşda formalaşdırılıb daha da möhkəmləndirilməsindən gedirdi. Prezidentimizin belə bir məsələyə diqqət çəkməsi heç də təsadüfi deyil. Bunun arxasında duran fikir, niyyət, eyni zamanda, hər birimizə verilən tapşırıq da bundan ibarət idi ki, hər bir Azərbaycan vətəndaşı dövlətçiliyin, dövlətin siyasətinin arxasında, keşiyində durmalı və əgər mübarizə aparmaq lazım gələrsə, onu da bacarmalıdır.

Bu gün bu komissiyanın yaradılması Azərbaycan parlamentinin bu ciddi məsələyə öz töhfəsini vermək məqsədini güdür. Amma dünyada hadisələr ciddi şəkildə dəyişibdir. Beynəlxalq hüquq artıq, demək olar ki, çox ölü vəziyyətə düşübdür. Belə bir halda həm müdaxilələr, həm müxtəlif təhdidlər, həm də hibrid təhdidlər adi bir praktika halına keçibdir. Bunu ayrı-ayrı ölkələrin tarixində görürük. Təbiidir ki, Azərbaycan da bu təhdidlərin obyektinə çevrilmək riskinə malik olan ölkələrdən biridir. Prezidentimizin rəhbərliyi altında dövlətimizin güclənməsi, qüdrətinin artması, Qarabağ savaşında çox möhtəşəm bir

qələbənin qazanılması və digər sahələrdə uğurla həyata keçirilən layihələr potensial olaraq Azərbaycanı bu hibrid təhdidlərin obyektinə çevirmək təhlükəsini yaradır. Əlbəttə ki, bu təhdidlərin qarşısını almaq üçün dövlətin digər üsullarla həyata keçirəcəyi xətlər, tədbirlər olacaqdır. Amma eyni zamanda, parlamentin və Azərbaycanın hər bir vətəndaşının bu məsələyə öz töhfəsini verməsi, bütövlükdə, bu hibrid təhdidlərə qarşı ictimai mübarizəni yaratmağımız, güman edirəm ki, Siyavuş Novruzovun qaldırdığı məsələnin uğurla həll olunmasını təmin edə biləcəkdir.

Azərbaycanlılar tərəfindən ölkəmizə qarşı aparılan “söyüş kampaniyası” o təhdidlərin kiçik bir hissəsidir. Düzdür, ürəkbulandıran bir hissəsidir. Amma bundan daha böyük miqyasda keçirilən yalan kampaniyalarının, “feyk”lərin və sairin qarşısının alınmasının ən etibarlı yollarından biri Azərbaycan cəmiyyətinin bu təhdidlərə qarşı müqavimətinin yaradılmasıdır. Güman edirəm ki, yaradılan komissiyanın qarşısında duran vəzifələrdən biri də bu müqaviməti yaratmaq istiqamətində addımlar atmaqdır.

Parlamentin sədri bu barədə dedi. Kanalın yaradılması, müzakirələrin keçirilməsi, ictimai dinləmələrin aparılması, əhali, seçicilərimiz arasında görüşlər zamanı bu istiqamətdə fikir mübadiləsinin aparılması və onlara tövsiyələrin verilməsi, güman edirəm ki, komissiyamızın və bütövlükdə, parlamentin hər bir üzvünün planına daxildir. Ümid edirəm ki, bu komissiyanı yaradaraq biz Prezidentimizin verdiyi tapşırığın icra olunması istiqamətində vacib bir addımı atmaqla yanaşı, həmçinin Azərbaycan dövlətçiliyinin indiki şəraitdə daha da ciddi əsaslarla qorunmasına parlamentin töhfəsini vermiş olacağıq. Sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Əli müəllim. Siyavuş müəllim, Siz qərar layihəsinə baxın. Orada bütün vəzifə və səlahiyyətlər əks olunub. Sizin kimin necə cavab verməsi ilə bağlı sualınız fərdi məsələdir. Ancaq bütün vəzifə və səlahiyyətlər bu qərar layihəsində var. Xahiş edirəm, onu diqqətlə oxuyun. Növbəti çıxış. Zahid Oruc. Buyurun.

**Zahid Oruc**. Hörmətli sədr, Sizin fikirlərinizi bütövlükdə bölüşərək dərin inamımızı ifadə edirik ki, bu proses ən sonda hibrid təhlükəsizlik haqqında yeni qanun layihəsi ilə müşayiət olunacaq, o cümlədən komissiya müvəqqəti deyil, daimi əsaslara keçəcək. Ümidvarıq ki, təkcə parlamentdə, dövlət təhlükəsizlik orqanlarında, Əks-Kəşfiyyat Xidmətində deyil, bütün digər dövlət orqanlarında da qəbul olunacaqdır. Burada hibrid təhlükəsizlik məsələsinə aydınlıq üçün gətirilən hüquqi etimologiyalardan ən başlıcası o oldu ki, ordunun apardığı silahlı savaşdan fərqli olaraq hibrid müharibələr silahsız aparılır, amma ondan da amansız ağır nəticələr doğura bilir. Bu üzdən sayın Ərdoğan tez-tez sevərək deyir: "Coğrafi vətən, mavi vətən və kiber vətən". Hər üçü bizim doğma vətənimizin ayrılmaz tərkib hissəsidir. Ona görə də ölkə rəhbərinin haqlı olaraq həm andiçmə mərasimindən, həm də parlamentin ilk təqdimat yığıncağındakı fikirlərdən misallar gətirildi. "Bizə təzyiqlər artacaqdır". Həmin çıxışların birində bu ifadə qeyd olunmuşdu. İkincisi isə "Arxayınlaşmaq olmaz".

Birinci, bizi kütləvi olaraq beynəlxalq məhkəmələrə çəkəcəklər. İkinci, sanksiyalar tətbiq etməyə cəhdlər göstərəcəklər. Bu, ortadadır. Bir az öncə möhtərəm cənab Prezident ustad Ələsgərin heykəlinin açılışı mərasimində "Biz qələbədən sonra o sanksiyaları yaşadıq və buna cəhdlər davam edir" ifadəsini söylədi. Bəzən dövlət, ali

rəhbərlik bütün məruz qaldığımız təzyiq və təxribatları bütöv cəmiyyətə açmır. Bu, təkcə qorxudulma amili və sairlə bağlı deyil. O, təhlükələri özü dəf edir.

Üçüncü, xaricdə olan sərvətlərimizə əl qoymağa cəhd göstərəcəklər. Bunun ilkin təşəbbüsləri var. ABŞ Konqresinin Helsinki komitəsində bu yöndə addımlar atırlar. Özləri korrupsiyanın içərisində olanlar Qərbdə, ümumiyyətlə, – yeri gəlmişkən, bu hibrid savaşın başında gedən elə Qərb dövlətləridir, amma region dövlətləri də bu prosesdə aktiv iştirak edirlər, –başqa xalqların sərvətlərini yağmalamağa öyrənmiş qüvvələr bu yöndə addımlar atmağa çalışırlar. Şübhəsiz ki, təkcə informasiya deyil, diplomatiya, siyasət, mənəviyyat, ailə, bütün cəmiyyətin strukturunu qoruyub saxlamaq bu beynəlxalq təhlükələrə birgə sinə gərməkdən asılıdır.

Biz çox arzulayırıq ki, burada siyasi, ideoloji qüvvələrin ayrımçılığı olmasın. Buna bitərəflər və hakim partiya anlayışları ilə yanaşılmasın. Sözün həqiqi mənasında, bu təhlükələrin hamısı hər bir azərbaycanlının əleyhinədir. Ona görə də savaş 44 gündə başlayıb və bitib. Sentyabrın 19-da başlayıb sentyabrın 20-də bitib. Amma hibrid təhlükələr heç vaxt bitməyəcək. Cənab Prezidentin sözü ilə desək, qələbəmizdən sonra Azərbaycanın beynəlxalq siyasi gücü, hərbi gücü artdığına rəğmən, yeni geosiyasi inqilab edib bu qlobal layları tərpətdiyimiz üçün bizə bundan sonrakı dövrdə də qələbəmizi müdafiə etmək, qorumaq vəzifəsi yazılıbdır. Ona görə də biz ümidvarıq ki, bu təşəbbüslər dinləmələrlə, qanun layihəsi ilə, sonra dövlət orqanları arasında sinxron koordinasiyalı əlaqələrlə müşahidə olunacaq. Təşəkkür edirəm, sağ olun.

**Sədrlik edən.** Sağ olun. Bəhruz Məhərrəmov. Buyurun.

**Bəhruz Məhərrəmov**. Çox təşəkkür edirəm. Hörmətli

sədr, hörmətli sədarət, əziz həmkarlar. Əvvəlcə, hər birinizi yeddinci çağırış parlamentin fəaliyyətə başlaması münasibəti ilə təbrik edirəm. Ölkədə sağlam, şəffaf seçkilərin keçirilməsinə, demokratik şəraitə və azad iradə ifadəsinə imkan verən reallığı bərqərar etdiyinə görə möhtərəm Prezidentimizə minnətdarıq. Eyni zamanda, bizə dəstək verən seçicilərimizə,ələlxüsus bu ali tribunadan şəxsim adından qəhrəmanlar diyarı Biləsuvarın qiymətli seçicilərinə təşəkkür edirəm.

Ulu Öndər Heydər Əliyevin bir zamanlar sədrlik etdiyi, cənab İlham Əliyevin, Mehriban xanım Əliyevanın hazırkı vəzifələrinə qədər deputat kimi tarixi əhəmiyyətə malik fəaliyyətdə bulunduqları parlamentdə olmaq böyük şərəfdir. Əminəm ki, güclü potensiallı yeddinci çağırış Milli Məclisə imkan verəcək ki, ümdə vəzifəmiz olan Ulu Öndər siyasi kursunun davamlılığına daha güclü şəkildə dəstəyimizi göstərək.

Layihəyə gəlincə, hörmətli həmkarlar, bu gün elə bir reallıq yaranıb ki, özünü beynəlxalq ictimaiyyət adlandıran, ikili standartlarla yaşayan riyakar dairələr bölgədə sülh və sabitliyə öz təcavüzkar maraqları üçün təhdid kimi baxırlar. Bu çərçivədə Ermənistan silahlandırılır. O cümlədən ayrı-ayrı beynəlxalq platformalarda ölkəmiz əleyhinə təzyiq platformaları formalaşdırılmağa çalışılır. Polis, istintaq, məhkəmə orqanları, hətta Silahlı Qüvvələrimizin belə gözdən salınması istiqamətində ciddi cəhdlər var. Xüsusən sosial mediada bu sahədə ciddi iş aparmağa çalışırlar. Onların yerdəki tör-töküntüləri olan, artıq xalq tərəfindən boykot edilmiş, tarixin zibilliyində olan radikallar, o cümlədən "söyüş müxalifəti" isə bu prosesdə alətə çevrilməyə dünəndən razıdır. Lakin cənab İlham Əliyev elə bir konfiqurasiya yaradıb ki, ölkəmiz

hərbi siyasi güc kimi regionda situasiyanı diktə edir, bölgədə əməliyyat şəraiti Bakının nəzarətindədir, daxildə isə marionetlərin uğursuz cəhdlərinə baxmayaraq, möhtərəm Prezidentin dediyi kimi, heç bir real təhdid yoxdur. Bu mənada parlamentin xarici müdaxilələr və hibrid təhdidlərə qarşı müvafiq müvəqqəti komissiyasının yaradılmasını cənab İlham Əliyevin müəyyən etdiyi tarixi yol xəritəsinə Milli Məclisin adekvat və praqmatik reaksiyası kimi baxıram və hesab edirəm ki, dəstəkləməyimiz zəruridir. Təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Bəhruz müəllim. Qüdrət Həsənquliyev. Buyurun.

**Qüdrət Həsənquliyev**. Təşəkkür edirəm. Hörmətli sədr, mən sizi, bütün deputat həmkarlarımı Milli Məclisin üzvü seçilməyiniz münasibəti ilə təbrik edirəm. Fürsətdən istifadə edib bu seçkilərdə mənə, rəhbərlik etdiyim Ədalət, Hüquq, Demokratiya Partiyasına səs vermiş, dəstək olmuş insanlara öz minnətdarlığımı bildirirəm və onları əmin edirəm ki, etimadı doğruldacağam.

Hörmətli sədr, müzakirə olunan məsələ ilə bağlı demək istəyirəm ki, mən bu təşəbbüsü dəstəkləyirəm. Doğrudan da, belə bir komissiyanın yaradılmasına ehtiyac var. Amma qeyd etmək istəyirəm ki, bizim Daxili Nizamnamənin 42-ci maddəsinə görə, müvəqqəti komissiyalar müəyyən bir müddət üçün yaradılır. Əgər bu, bütün parlamentin sessiyası, yəni fəaliyyətdə olacaq yeddinci çağırış dövründə yaradılırsa, artıq bu, müvəqqəti komissiya olmur. 41-ci maddədə İntizam komissiyasının yaradılması öz əksini tapıb. Daxili Nizamnaməyə 41-1-ci maddəni əlavə edək və bunu daimi komissiya kimi yaradaq. Çünki bu qərarın 4-cü hissəsində qeyd olunur ki, xarici müdaxilələrə və hibrid təhdidlərə qarşı müvəqqəti komissiya yeddinci çağırış

Azərbaycan Respublikası Milli Məclisinin səlahiyyət müddəti ərzində fəaliyyət göstərir. Ona görə də hesab edirəm ki, bunun müvəqqəti komissiya adlandırılması doğru olmaz.

Hörmətli sədr, bu məsələ niyə aktualdır? Biz görürük ki, Ermənistanın və onu müdafiə edən, Azərbaycana düşmən kəsilmiş xarici dövlətlərin xüsusi xidmət orqanları tərəfindən dövlətimizə qarşı böyük bir mənəvi terror təşkil olunub. Onlar bu mənəvi terrorda bizim vətəndaşlardan da istifadə edirlər, yeri gələndə həmin vətəndaşları döyürlər, xəsarət də yetirirlər, hələ yaxşı ki, öldürmürlər. Bundan da Azərbaycana qarşı bir kampaniya kimi istifadə edirlər.

Biz hər zaman görürük ki, Azərbaycan böyük beynəlxalq tədbirlər ərəfəsində bu cür təzyiq və təhdidlərlə üz-üzə qalır. İndi də Azərbaycanda COP29 tədbiri keçiriləcək. Biz görürük ki, bu ərəfədə ayrı-ayrı şəxslər hansı etnik qrupların, azsaylı xalqların hüquqlarının müdafiəsi altında fəaliyyətə başlayıblar, fəaliyyətlərini xeyli genişləndiriblər, hansı isə terror qrupları sərhəd bölgələrində canlanıb. Yəni çox müxtəlif xarakterli təxribatlara əl atırlar. Ona görə də belə bir komissiyanın yaradılması, bu təhdidlərin öyrənilməsi və əhalinin maarifləndirilməsi son dərəcə zəruridir. Mən hörmətli Əli Əhmədovun səsləndirdiyi məsələlərə tam dəstəyimi ifadə edirəm. Hesab edirəm ki, millət vəkilləri, doğrudan da, ölkəmizə qarşı hazırlanan və həyata keçirilən çox müxtəlif xarakterli təxribatlara cavab verməlidirlər, insanlarımızı maarifləndirməlidirlər, insanlarımız ayıq olmalıdır.

Ölkədə milli həmrəyliyə nail olmaq üçün, həmrəyliyimizi daha da gücləndirmək üçün biz ilk dəfə olaraq müstəqillik əldə edəndən sonra sentyabrın 20-də Dövlət Suverenliyi Gününü qeyd etdik. Mən təklif etmək

istəyirəm ki, həmin gün münasibəti ilə və Zəfər gününə qədər ölkəmizdə bir amnistiya aktı qəbul olunsun. Bu amnistiya aktı dövlət və şəxsiyyət əleyhinə, xüsusilə ağır cinayətlər törətmiş şəxslər istisna olmaqla digər şəxslərə şamil olunsun. Düşünürəm ki, COP29 ərəfəsində belə bir aktın qəbul olunması da ölkəmizin və dövlətimizin maraqlarına cavab vermiş olardı. Həmin şəxslərin tərbiyələnməsinə, yenidən cinayət törətməməsinə humanist bir addım kimi bir töhfə vermiş olardı. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Sağ olun. Mübariz Qurbanlı. Buyurun.

**Mübariz Qurbanlı**. Təşəkkür edirəm, hörmətli sədr. Mən də burada səslənmiş təbriklərə qoşuluram. Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra xarici müdaxilə və hibrid təhdidlərə ciddi şəkildə məruz qalmışdıq. Bu xarici müdaxilə Ermənistanın Azərbaycana təcavüzü idi. Eyni zamanda, biz həmin xarici müdaxilə baş verməzdən əvvəl də məhz kiber təhdidlər formasında Azərbaycanda cəmiyyəti parçalamaq, təsir agentləri yaratmaq vasitəsi ilə həmin bəzi ölkələrin, bəzi dairələrin siyasətini həyata keçirmək üçün cəhdlər etdiyini açıq şəkildə görmüşdük.

Ulu Öndər Heydər Əliyevin müəyyən etdiyi siyasi xətti uğurla davam etdirən Prezidentimiz cənab İlham Əliyevin rəhbərliyi ilə şanlı ordumuz Azərbaycanın ərazi bütövlüyünü, suverenliyini bərpa etdi və biz yeni mərhələyə qədəm qoyduq.

Hamımıza da məlumdur ki, bütövlükdə, dünya yeni mərhələyə qədəm qoydu. Bu yeni mərhələ özü ilə bərabər yeni çağırışlar gətirdi. Yeni çağırışlar içərisində isə dünyada təsir dairəsini möhkəmləndirmək istəyən qlobal güclərin məhz bu cür metodlardan – kiber təhdidlərdən, o cümlədən müxtəlif vasitələrlə müdaxilələrdən istifadə etdiyini görməkdəyik. Soyuq müharibə illərində bu,

ideoloji pərdə arxasında gedirdi, bu gün isə müxtəlif adlar altında həyata keçirilməkdədir. Bu adlar içərisində bəzi güclər demokratiya adı, din adı, müxtəlif adlar altında öz təsir dairəsinə salmaq istədiyi bölgələrdə və sairdə həmin cəmiyyəti parçalamaq üçün cəhdlər edirlər. Əlbəttə, Azərbaycan bu risklərdən xali deyil və cənab Prezident çıxışında qeyd etdi ki, biz daxili təhdidlərə son qoya bilmişik, amma xarici təhdidlər davam etməkdədir.

İndiki şəraitdə belə bir komissiyanın yaradılması vacibdir. Mən komissiyanın tərkibinə diqqətlə baxdım. Ora bu məsələni mükəmməl bilən çox peşəkar deputatlar cəlb edilibdir. Komissiyanın sədri Ramid müəllimi tanıyıram. Yüksək səviyyədə təhsil alıbdır. Əminəm ki, orada yazılan və qarşıda duran vəzifələri həll etmək üçün onlar lazımi vaxtlarda müxtəlif təkliflərlə çıxış edəcəklər.

Sizin söylədiyiniz "YouTube" kanalı vasitəsi ilə, əlbəttə, bu mövzu ətrafında müzakirələri aparmaq, cəmiyyəti bununla daha geniş şəkildə tanış etmək lazımdır.

Dünyada kiber təhlükəsizlik məsələsi var. Bu gün baş verən hadisələrin anatomiyasına, onun gedişatına nəzər salsaq, "bunlar nədən baş verib?" desək... Bu gün dünya əhalisinin sayı 8 milyardı ötür. Müstəqil dövlətlərin sayı 200-dən bir az artıqdır. Amma biz dünyada maraqların toqquşmasını müşahidə etməkdəyik. Maraqların toqquşmasında da böyük dövlətlər bu cür vasitələri işə salmaqla öz məqsədlərinə çatmaq istəyirlər.

Mən bəzi rəqəmləri demək istəyirəm. Bu gün bütün ölkələrin hərbi büdcəsi 2023-cü il statistikasına görə, 200 milyard təşkil edir. Bütün dünya ölkələrinin hərbi büdcəsi 2 trilyon 200 milyarddır. Bunun 1 trilyon 200 milyardı yalnız NATO ölkələrinin payına düşür. Bu gün dünyada təqribən 140-dan çox münaqişə ocağı var. Onlardan 30-u

aktivdir. Bütün münaqişə ocaqları ilə bağlı təhlillər göstərir ki, bu ocaqları yaratmaq üçün bu cür təhdidlərdən istifadə edilir. Yəni bunun anatomiyası göstərir ki, bu necə yaranıb, hansı formada bunu yarada biliblər. Bunu yaratmaq üçün həmin cəmiyyətə öncədən müxtəlif vasitələrlə təsir göstəriblər.

Burada hörmətli deputatlar, mütəxəssislər çox gözəl fikirlər səsləndirdilər, çıxışlar etdilər. Bu fikirlərə qoşularaq bir daha qeyd etmək istəyirəm ki, müstəqil Azərbaycanın yerləşdiyi coğrafi mühit, coğrafi ərazi, eyni zamanda, bizim əldə etdiyimiz uğurlar və sair səbəblərdən ölkəmiz əleyhinə olan dairələr ona qarşı bu cür metodlardan istifadə etməklə öz məqsədlərinə çatmağa cəhd etməkdədirlər. Özü də bununla əlaqədar cənab Prezidentin çıxışında “dünya ictimaiyyəti” və sair qeyd olunub. Müxtəlif dəbdəbəli adlar altında təşkilatlar yaradıb onları dünya təşkilatı adından, xüsusilə insan haqları ilə bağlı dünyaya göstərmək istəyirlər. Onların adından müxtəlif bölgələrdə özlərinə, onlarla uyğunlaşmayan, onların dili ilə oturub-durmayan, belə deyək, ölkələri həmin təşkilatlar...

**Sədrlik edən.** Mübariz müəllim, təəssüf olsun ki, vaxt qurtardı, çox sağ olun. Mən bizim hörmətli deputatların adlarını çəkdim, dedim ki, onlar kömək etsinlər, yəni iştirak etsinlər. Mən Sizi qeyd etmədim, üzr istəyirəm. Bilirəm, Siz mütləq həmin o dinləmələrin, dəyirmi masaların, həmin yığıncaqların ən fəal üzvlərindən biri olacaqsınız.

Bizim siyahı getdikcə çoxalır. Hörmətli həmkarlar, əgər etiraz etmirsinizsə, məsələni səsə qoyaq. Etiraz yoxdur ki?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 14.48 dəq.) |
|---|---|
| Lehinə | 115 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 115 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Hicran xanım, mən bilirəm, Sizin çıxışınız ən maraqlı çıxışlardan ola bilərdi. Çünki ailə məsələsinə toxunacaqdınız. Xahiş edirəm, öz çıxışınızı Katibliyə verin, stenoqrama düşəcək. Burada bizim jurnalistlər var, onlara da müsahibə verə bilərsiniz.

Hörmətli həmkarlar, bununla da bizim iclasımız başa çatdı. Növbəti iclasın tarixi sizə deyiləcək. Sağ olun.

# MÜNDƏRİCAT

30 sentyabr 2024-cü il.......................................................... 3

Yeddinci çağırış

AZƏRBAYCAN RESPUBLİKASI
MİLLİ MƏCLİSİ İCLASLARININ

PROTOKOLLARI
VƏ
STENOQRAMLARI

Birinci sessiya
Payız

2-ci cild

30 sentyabr 2024-cü il

Buraxılışına məsul
***Hafiz Babayev***


Azərbaycan Respublikasi Milli Məclisinin mətbəəsi.
Bakı, Azad Mirzəyev küçəsi, 235.
Format 60x84 1/16. Çap vərəqi 5,5. Sifariş 100. Tiraj 150.